Günəş Şərqdən doğur!

№ 140 (5421), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 10 avqust 2021-ci il (çərşənbə axşamı)



## Məhərrəmlik başladı

Qazılar Şurası əhaliyə müraciət edərək dini mərasimlərin karantin qaydalarına uyğun keçirilməsini tövsiyə edib

(səh.9)

# Paşinyan Rusiyanı qarşıdurmaya çəkir

## Ermənistanın davranışları Azərbaycan və Rusiyaya müəyyən problemlər yaradır

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Bununla bağlı Azərbaycan XİN məlumat yayıb. Nazirlər Azərbaycan-Ermənistan dövlət sərhədində mövcud olan vəziyyəti və üçtərəfli bəyanatların icrası ilə əlaqədar məsələləri, o cümlədən bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupunun fəaliyyətinə dair məsələləri müzakirə ediblər.



(səh.5)



## Bolqarıstan Prezidenti Azərbaycan Prezidentinə zəng edib

Liderlər Azərbaycan qazının Bolqarıstana ixracını müzakirə etdilər

**Avqustun 9-da Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Prezidentin Mətbuat Xidmətindən verilən məlumata görə, söhbət zamanı Azərbaycan-Bolqarıstan münasibətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq və ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

(səh.2)

## Türkiyədəki yanğınlar qısa zamanda söndürüləcək



Azərbaycan yanğınsöndürənləri 14 rayonda yanğınların söndürülməsi üçün fədakarlıqla mübarizə aparıblar

(səh.2)

# "...Qazaxın yeddi kəndi və Kərki qaytarılacaq"



Səməd Seyidov: "Ermənistanın gələcəyi Azərbaycanla normal münasibətlərdən asılıdır"



(səh.3)

- **Naxçıvan istiqamətində mövqelərimiz yenidən atəşə tutulub** (səh.4)
- **Növbəti hərbi əməliyyatlar istisna deyil**
  Tofiq Zülfüqarov: "İrəvan beynəlxalq "oyunçuları" sərhəddə çəkmək istəyir" (səh.3)
- **Bir gündə 9 nəfər vəfat etdi**
  Azərbaycanda 1 101 nəfər koronavirusa yoluxub (səh.9)
- **Ərzaq ilin sonunadək yenə bahalaşacaq**
  Natiq Cəfərli: "Gömrük orqanlarında ciddi problemlər var" (səh.12)

# Azərbaycanda "e-KOB evi" portalı yaradılır

## Prezident İlham Əliyev fərman imzalayıb



Prezident İlham Əliyev "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərman imzalayıb.

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, Fərmana əsasən "e-KOB evi" portalı haqqında Əsasnamə" təsdiq edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılır ki, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq "e-KOB evi" portalının (bundan sonra - portal) Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra ? EHİS) inteqrasiyası ilə bağlı zəruri tədbirlər görsün.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə tapşırılır ki, portalın formalaşdırılması və aparılması ilə bağlı zəruri tədbirlər görsün; dövlət orqanları (qurumları) tərəfindən kiçik və orta biznes evlərində göstərilən və Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş, habelə EHİS-ə inteqrasiya olunmuş elektron xidmətlərin, EHİS vasitəsilə portal üzərindən elektron formada göstərilməsini təmin etsin; Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti ilə birlikdə portalın təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün; Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə portalın "Hökumət buludu"na keçidinin təşkili ilə bağlı tədbirlər görsün.

Dövlət orqanları (qurumları) bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.2-ci bəndinə uyğun olaraq məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini və həmin Əsasnamənin 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan xidmətlərin bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq göstərilməsini təmin etmək məqsədilə aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün zəruri tədbirlər görəcəklər.



### Bolqarıstan Prezidenti Azərbaycan Prezidentinə zəng edib

Liderlər Azərbaycan qazının Bolqarıstana ixracını müzakirə etdilər

**Avqustun 9-da Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Prezidentin Mətbuat Xidmətindən verilən məlumata görə, söhbət zamanı Azərbaycan-Bolqarıstan münasibətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq və ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edilib. Ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Söhbət əsnasında Azərbaycan təbii qazının Bolqarıstana ixracı və Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun tikintisi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Respublikası Bolqarıstana təkcə təbii qaz deyil, elektrik enerjisinin də ixracına başlayıb və bu da energetika sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Prezident Rumen Radev Azərbaycanda yaradılmış sosial innovasiya mərkəzlərinin əhəmiyyətini vurğulayaraq bu sahədə ölkəmizin təcrübəsinə maraq ifadə edib.

Bolqarıstanın dövlət başçısı Azərbaycan Prezidentini ölkəsinə səfərə dəvət edib. Prezident İlham Əliyev dəvətə görə minnətdarlıq ifadə edərək, bu səfərin münasib vaxtda həyata keçiriləcəyini bildirib.

### Yunanıstan XİN Azərbaycana təşəkkür edib



**Yunanıstan Xarici İşlər Nazirliyi ölkədə irimiqyaslı meşə yanğınları ilə mübarizədə dəstəyə görə Azərbaycana təşəkkür edib.**

Bu barədə Yunanıstan XİN-in "Twitter" səhifəsində yazılıb.

*Qeyd edək ki, Yunanıstanda 10 gündən artıq müddətdə 47 dərəcəyədək anomal istilər qeydə alınıb. Bununla əlaqədar ölkədə 154 meşə yanğını baş verib. Təkcə son sutka ərzində 98 yeni yanğın başlayıb.*

### Angela Merkel Ukraynaya səfər edəcək



**Almaniya Kansleri Angela Merkelin Ukraynaya səfəri gözlənilir.**

APA-nın "Ukrinform"a istinadən verdiyi xəbərə görə, bu barədə Ukrayna Prezidentinin mətbuat katibi Sergey Nikiforov "Facebook" hesabında məlumat verib.

Mətbuat katibi bildirib ki, səfər avqustun 22-də baş tutacaq.

O qeyd edib ki, görüşlərdə təhlükəsizlik məsələləri, qarşılıqlı əlaqələr və digər məsələlər müzakirə olunacaq.

*Qeyd edək ki, Ukrayna Prezidenti Vladmir Zelenski Almaniya Kansleri Angela Merkellə sonuncu dəfə iyulun 12-də Berlinə səfəri çərçivəsində görüşüb.*

# Türkiyədəki yanğınlar qısa zamanda söndürüləcək

Azərbaycan yanğınsöndürənləri 14 rayonda yanğınların söndürülməsi üçün fədakarlıqla mübarizə aparıblar

**"Hazırda Türkiyədə FHN-in 743 əməkdaşı və 97 texnikası fəaliyyət göstərir".**

**Bunu Fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev Muğla vilayətinin Köyceğiz rayonunda Azərbaycan mediasının nümayəndələri üçün təşkil olunan brifinqdə deyib.**

E.Mirzəyev qeyd edib ki, Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə yola salınan Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələri təyinat məntəqələrinə çatdıqları andan yanğınlara qarşı mübarizəyə başlayıblar.

Nazir müavini bildirib ki, yanğınların ən güclü vaxtında Azərbaycan yanğınsöndürənləri ümumilikdə 14 rayonda, o cümlədən strateji əhəmiyyətə malik Yeniköy və Kəmərköy İstilik Elektrik stansiyaları yaxınlığında, eləcə də Muğla vilayətinin Köyceğiz, Milas, Kavaklıdere, Marmaris və digər yaşayış məntəqələrində meşə yanğınlarının söndürülməsi üçün fədakarlıqla mübarizə aparıblar.



Yeniköy və Kəmərköy İstilik Elektrik stansiyalarının qorunması üçün Azərbaycan yanğınsöndürənlərinin də iştirakı ilə mühafizə zolağı yaradılıb. Yeni yanğınlar baş verməsə, digər yanğınlar qısa zamanda söndürüləcək.

**FHN-in Türkiyəyə cəlb olunan canlı qüvvə və texnikasının sayı barədə məlumat verən E.Mirzəyev bildirib:**

"Hazırda Türkiyədə FHN-in 743 əməkdaşı fəaliyyət göstərir. Bundan başqa, 97 texnika, o cümlədən 77 yanğınsöndürmə, 6 nasos avtomobili, 1 yanacaqdoldurma çəni, 4 qərargah avtomaşını, 2 avtobus və 1 pikap, eləcə də köməkçi texniki vasitələr, "BE-200ÇS" tipli amfibiya təyyarəsi və 1 helikopter Türkiyədə meşə yanğınlarının söndürülməsinə cəlb olunub. Helikopterimiz 134 uçuş həyata keçirib və yanğın bölgəsinə 332 ton su töküb. Amfibiya təyyarəsi isə yanğınların söndürülməsi üçün 615 ton su səpib".

Qeyd edək ki, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Yanğınsöndürənlərimiz təyinat nöqtələrində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar. İyulun 31-də FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub.

Avqustun 5-də səhər saatlarında FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi qardaş ölkəyə yola düşüb. Həmin gün FHN-in 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürəndən ibarət üçüncü yanğın-xilasetmə qrupu da Türkiyəyə yola salınıb. Avqustun 6-da axşam saatlarında FHN-in yanğın-xilasetmə qüvvələrinin 200 nəfərdən ibarət dördüncü qrupu təyyarə ilə Türkiyəyə yola salınıb.

Fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin başçılığı ilə qurumun məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti FHN-in Türkiyədəki qüvvələrinin koordinasiyalı idarə edilməsi məqsədilə qardaş ölkədədir.





# "...Qazaxın yeddi kəndi və Kərki qaytarılacaq"

**Qazaxın 7 kəndinin Azərbaycana geri qaytarılması ilə bağlı Ermənistan parlamentində qapalı müzakirə aparılıb. Erməni deputat Anna Qriqoryan iclas zamanı rəsmi İrəvanı bu mövzü ilə bağlı ictimaiyyəti aldatmamağa çağırıb.**

## Səməd Seyidov: "Ermənistanın gələcəyi Azərbaycanla normal münasibətlərdən asılıdır"

Bu barədə Ermənistan mətbuatı parlamentdəki mötəbər mənbəyə istinadən xəbər yayıb. Anna Qriqoryan öz çıxışı zamanı Ermənistan hakimiyyətinin Naxçıvanın Kərki, Qazaxın Yuxarı və Aşağı Əskipara da daxil olmaqla, 7 kəndi, o cümlədən Xinzirək kəndlərinin Azərbaycanın nəzarəti altına verməK istəyini açıqlayıb.

"Belə bir sənədin artıq imzalandığı bildirilir. Gələcəkdə İrəvanın bütün Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyacağı da istisna olunmur. Ermənistan ictimaiyyəti Əskipara məsələsi ilə bağlı suallar içindədir. Xalqa artıq hər şeyi düz danışmağın vaxtıdır", - deyərək o bildirib. Kərki ilə bərabər, Qazaxın Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndləri Azərbaycanın ekskavlarıdır.

**Millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov "Şərq"ə açıqlamasında məsələyə münasibət bildirib:**

"Son hadisələr onu deməyə əsas verir ki, nəinki Qazaxın yeddi kəndi və Kərki qaytarılacaq, hətta digər məsələlər də həllini tapacaq. Çünki yeni geosiyasi vəziyyət yaranıb. Düzdür, Ermənistan hakimiyyəti, ola bilsin, bunu qəbul etmək istəmir. Zaman-zaman təxribatlar törədir, bəyanatlar verir. Lakin artıq "sular durulur". Daxildə də reallıqları görür və başqa variantlarının olmadığını anlayırlar. Ermənistanın gələcəyi Azərbaycanla normal münasibətlərdən asılıdır".

**Kənan Novruzov**

# Növbəti hərbi əməliyyatlar istisna deyil

## Tofiq Zülfüqarov: "İrəvan beynəlxalq "oyunçuları" sərhəddə çəkmək istəyir"



**Ermənistan sərhəddə təxribatlarına ara vermir. Bu əsnada rus hərbçiləri Qazaxa yerləşməkdədir.**

Bu günlərdə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında telefon danışığı olub. Bir tərəfdən isə yekun sülh müqaviləsi hələ də gündəmdədir. Nələr baş verir? Nəhayət, sənəd imzalanacaqmı?

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə açıqlamasında deyib ki, 10 noyabr sənədinin əsas elementləri icra edilməlidir:** "Xüsusilə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Amma düşmən bunu istəmir. İkinci bir tərəfdən isə İrəvan başa düşür ki, ərazi bütövlüyümüzə təhdid cəhdləri nəticəsində zərbə ala bilər. Bu nöqteyi-nəzərdən beynəlxalq "oyunçuları" sərhəd xəttinə çəkmək istəyir. Beləliklə, Ermənistan onların arxasında gizlənərək siyasətini davam etdirəcək. Törədilən təxribatlar da məhz bu məsələni gündəmdə saxlamaqdan ötrüdür".

**T.Zülfüqarovun fikrincə, növbəti hərbi əməliyyatlar istisna deyil:** "Qazaxın yeddi kəndinin qaytarılması aktuallaşıb. Kərkidə isə bu, daha asan ola bilər. Ermənistan üçtərəfli razılığa uyğun olaraq üzərinə müəyyən öhdəliklər götürüb. Və onları yerinə yetirməlidir. Bunlar erməni silahlılarının Qarabağdan çıxarılması, hərbi müdaxilələrə son verilməsi, Zəngəzur dəhlizinin açılması və başqa müddəalardır. Amma İrəvan hələ ki, şərtlərdən boyun qaçırır".

**Kənan**



# Ermənistan Naxçıvana hücum etsə...

## Cümşüd Nuriyev: "Qarşısında tək Azərbaycanı yox, Türkiyəni də görəcəklər"



Son günlərdə Azərbaycanla Ermənistan sərhəddi boyunca atışma hallarının sayı artıb. Müdafiə Nazirliyindən bildirilib ki, avqustun 9-u saat 00:10-dan 00:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur. Qeyd edək ki, bir müddət əvvəl Ermənistan Kəlbəcər istiqamətində də Azərbaycan ərazilərini atəşə tutmuşdu. Maraqlıdır, son zamanlar bu təxribatların artmasının məqsədi nədir? Bu dəfə niyə məhz Naxçıvan hədəf seçilib? Qars müqaviləsinə əsasən Türkiyə bu məsələdə müdaxilə edə bilərmi?

**Siyasi elmlər namizədi, politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında qeyd edib ki, ermənilərin təxribatlarını davam etməsinin əsas səbəbi təkcə Qars müqaviləsi deyil.** Eyni zamanda, ermənilər Azərbaycan-Ermənistan sərhədində Azərbaycanın Ermənistana hər hansı bir müharibə elan etmədən hücum etməsini gözləyir: "Ona görə bu təxribatların coğrafiyasını da genişləndirirlər. Yəni əvvəl təkcə Kəlbəcər idi, sonra digər ərazilərdə də təxribatlara əl atdılar. Naxçıvana gəldikdə, bura həmişə ermənilərin gözünün dağı olub. Təbii ki, indi də elədir. Bilirik ki, iki aydan sonra Qars müqaviləsinin 100 ili tamam olacaq. Qeyd edim ki, Qars müqaviləsi konkret olaraq Zaqafqaziya respublikaları ilə Türkiyə arasında bağlanmış bir müqavilədir. Həmin müqavilənin şərtlərində Naxçıvan Azərbaycanın tərkibində qalmaqla, Azərbaycan ərazi bütövlüyü Ermənistan tərəfindən tanınıb. Düzdür, sonralar ermənilər bunun əleyhinə çox güclü təbliğat aparırdılar və o müqavilənin ləğvini belə tələb edirdilər. 2016-cı ildə bu məsələni Rusiyada da qaldırmışdılar. Amma təbii ki, bütün bunların arxasında Rusiyanın maraqları durur. Hətta 1945-ci ildə Qars müqaviləsinin ləğvi üçün V.Molotov Türkiyənin Moskvadakı səfirini dəvət etmiş və ona bir xəbərdarlıq da etmişdi. Bilirsiniz ki, SSRİ-nin faşizm üzərində qələbəsindən sonra artıq onun qabağında kimsə dura bilmirdi. Türkiyə isə çox çətin durumda idi. Bu zaman Çörçill bu məsələdə çox böyük xidmət göstərdi. Düzdür, Truman bitərəf qaldı, yəni həmişəki kimi Amerika bir çətinlik olanda qıraqda durur. Ancaq V.Çörçill SSRİ-nin daha da genişlənməsini istəmədi və bunu dayandırdı. Bu gün də həmin müqavilə qüvvədədir".

**C.Nuriyev diqqətə çatdırıb ki, Azərbaycan və Türkiyənin indiki yaxınlığı erməniləri həddən artıq narahat edir:** "Daha doğrusu, bu, bizi sevməyən digər qonşularımızı da narahat edir. Amma hesab edirəm ki, bu təxribatlar hələ davam edəcək. Azərbaycan çox düzgün mövqe tutur. Hazırda bizim Rusiya ilə müharibə etmək fikrimiz yoxdur və bizə lazım da deyil. Amma ermənilər həmişəki kimi çalışırlar ki, özləri qıraqda dursun və rusları bizlə üz-üzə qoysun. Zaman-zaman belə olub, bunlar bütün sahələrdə hər cür təxribatlarla məşğul olmaq üzrə ustadılar. Bunu etiraf etmək lazımdır. Bu gün də Qars müqaviləsinin müddəalarına görə, əgər Ermənistan Naxçıvana hər hansı bir hücum eləsə, təbii ki, qarşısında Türkiyəni görəcək. Təsadüfi deyil ki, Qars müqaviləsi bağlanandan sonra böyük Atatürk demişdir ki, Qars müqaviləsi Sevr müqaviləsini öldürdü. Bilirik ki, Sevr müqaviləsi ermənilərin köməyilə hazırlanmış müqavilə idi. Türkiyə əraziləri Ermənistana keçməli idi, amma Qars müqaviləsi ilə həmin sərhədlər müəyyənləşdirildi və ermənilərin bütün arzuları gözündə qaldı. İnanıram ki, bundan sonra da bütün arzuları gözündə qalacaq, xüsusən də Naxçıvanla bağlı. Naxçıvanı udmaq (onlar bunu belə adlandırırlar) ermənilər üçün mümkünsüzdür və Ermənistanın boğazında ilişib qalacaq. Çünki Naxçıvan tək deyil. Onun yanında qardaşları var. Ermənilər də bilməlidir ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir".

**Aynurə Pənahqızı**

# Ermənistan öz taleyini birdəfəlik Rusiyaya bağlayır

## Elxan Şahinoğlu: "Rusiya Ermənistandakı hərbi bazasını genişləndirirsə, Azərbaycanla sərhəddə hərbçilərini yerləşdirirsə, biz niyə eyni işi Türkiyə ilə görməməliyik?"



"Ermənistan müharibədə ağır məğlubiyyətdən sonra ikinci şokunu yaşadı - Azərbaycan bu ölkə ilə az qala 30 il nəzarətsiz qalan sərhədini müəyyənləşdirməyə başladı. Ermənilər Azərbaycan hərbçilərini yaxınlıqlarında görürlər. İrəvan bu vəziyyətdə sərhədin müəyyənləşməsi məqsədilə Bakı ilə danışıqlara razı olmaq əvəzinə Rusiyaya yalvarmağa başladı ki, "gəlin sərhədə yerləşin".

Moskva bir ara bu çağırışlara reaksiya vermirdi və Ermənistanda parlament seçkilərinin nəticəsini gözləyirdi".

**Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, seçki arxada qaldı və Nikol Paşinyan kürsüsünü qorudu:** "Kreml Ermənistanda Paşinyan reallığını qəbul etdi. Bundan sonra Rusiyanın Ermənistandakı səfiri və ayrı-ayrı rus generallar tez-tez sərhəd ərazilərdə görünməyə başladılar. Aydın oldu ki, Rusiya Ermənistanın Türkiyə və İranla yanaşı Azərbaycanla sərhədində də yerləşməyə hazırlaşır. Ancaq Ermənistanın Türkiyə və İrandan fərqli olaraq Azərbaycanla sərhədin bəzi kəsimləri müəyyən olunmayıb. Ona görə rusiyalı sərhədçilərin sərhədin müəyyən olunmayan hissəsində yerləşməsi Azərbaycanın haqlı narazılığına səbəb ola bilərdi. Buna görə də Moskva risk etmədi".

**E.Şahinoğlu diqqətə çatdırıb ki, Rusiya öz hərbçilərini hələ ki, sərhədin delimitasiya və demarkasiya olunmuş hissələrinə göndərmir:** "Rusiya sərhədçiləri Tovuz istiqamətində görünməyə başlayıblar. Ermənistan normal dövlət olsaydı delimitasiya və demarkasiya işləri yekunlaşandan sonra o biri tərəfdə hansı ölkənin sərhədçilərinin xidmət çəkəcəyi Azərbaycanı çox maraqlandırmamalı idi. Ancaq yenə də Ermənistanın Türkiyə və İranla sərhədi ilə Azərbaycanla sərhədi arasında fərq var. Ermənistanın Türkiyə və İranla sərhədində insident baş vermir. Kim zəmanət verə bilər ki, Ermənistan ordusu Azərbaycanla sərhəddə təxribat törədib rusiyalı sərhədçilərin arxasında gizlənməyəcək? Misal üçün, rusiyalı hərbçilər Qarabağdadırlar. Ancaq elə rusiyalı hərbçilərin nəzarət etdiyi ərazilərdən Şuşa atəşə tutuldu. Bu hallar sərhəddə də baş verə bilər. Bu mənada rəsmi Bakının Moskvadan müxtəlif kanallarla hesabat istəməyə haqqı çatır. Kremlə ən azı iki sual ünvanlanmalıdır: Rusiya öz hərbçilərini hansı məqsədlə Ermənistan-Azərbaycan sərhəddində yerləşdirir? Rusiya hərbçiləri onların nəzarət etdiyi Ermənistan ərazisindən Azərbaycana qarşı hər hansı təxribatın baş verməyəcəyinə təminat verirmi? Məsələ burasındadır ki, o tərəfdən bizə qarşı təxribat baş verərsə, biz cavab vermək məcburiyyətində qalacağıq. Bunun məsuliyyəti isə artıq Rusiyanın üzərində olacaq. Belə çıxacaq ki, İrəvan Rusiya ilə Azərbaycanı üz-üzə qoyur".

**Politoloq vurğulayıb ki, Rusiya sözdə bizə müxtəlif vədlər verə bilər, ancaq reallıq fərqlidir:** "Rəsmi Bakının balanslaşdırılmış xarici siyasəti bir mərhələyə qədər davam edə bilər. Hazırda elə bir mərhələyə gəlmişik ki, strateji tərəfdaşımızla çalışmalarımızı genişləndirməliyik. Prezident İlham Əliyev özü hər dəfə vurğulayır ki, "dünyada Türkiyə-Azərbaycan ittifaqının bənzəri yoxdur", "Azərbaycan ordusu Türkiyə ordusunun kiçik modelinə çevrilməlidir" və s. Deməli, təhlükəsizlik siyasətini bu tezislər əsasında formalaşdırmalıyıq. Rusiya Ermənistandakı hərbi bazasını genişləndirirsə, Azərbaycanla sərhəddə hərbçilərini yerləşdirirsə, biz niyə eyni işi Türkiyə ilə görməməliyik? Azərbaycan cəmiyyəti və siyasi palitrası rusiyalı hərbçilərin vaxtları bitəndən sonra Qarabağdan çıxmasını istəyir. Hakimiyyətin də istəyi budur, əks halda Xarici İşlər Nazirliyinin açıqlamalarında "Qarabağda müvəqqəti yerləşdirilən sülhməramlılar" ifadəsi yer almazdı. Ancaq Moskva, İrəvan və Qarabağdakı erməni separatçıları rusiyalı hərbçilərin bölgədə daimi qalması üçün əllərindən gələni edəcəklər, müxtəlif təxribatlar da istisna deyil. Odur ki, rusiyalı hərbçilərin torpaqlarımızdan çıxması üçün bizə Türkiyənin diplomatik və hərbi dəstəyi lazım gələcək. Bu prosesə isə indidən başlamaq lazımdır. İlk addım rusiyalı hərbçilərin sərhədimizdə yerləşdirilməsinə düşünülmüş və gələcəyə hesablanmış cavabımız olmalıdır".

**Aynurə Pənahqızı**



# Milli Məclis sədrinə qarşı qara piar aparılır

## Səməd Seyidov: "Sahibə Qafarova hətta pandemiya dövründə çox fəal oldu"

**"Bu barədə səslənən birmənalı olmayan fikirlər məni məyus etdi. Onlar səfərin mahiyyətini başa düşməyiblər".**

Bu sözləri Milli Məclisin sədri Sahibə Qafarovanın İrana səfəri haqqında "Şərq"ə danışan millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

**S.Seyidovun fikrincə, səslənən bir çox fikirlər qərəzlidir:** "Görüş protokol qaydalarına uyğun olaraq həyata keçirilib. Həmçinin səfər zamanı Xocalı faciəsi gündəmə gətirilib. Düşünürəm ki, belə həqiqətə uyğun olmayan mövqelər Azərbaycan parlamentinin son illərdəki uğurlu fəaliyyəti ilə əlaqəlidir. Belə ki, bu, bir çoxlarında qıcıq yaradır. Milli Məclisin sədri Sahibə Qafarova hətta pandemiya dövründə çox fəal oldu, o cümlədən Azərbaycan-Türkiyə və Pakistan arasında üçtərəfli bəyanat imzalandı. Həmin faktlar qara piarla nəticələndi. Halbuki səfər zamanı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəstəkləndi, protokol qaydalarına riayət edildi. Reallığı əks etdirməyən fikirlər isə parlamentimizin nüfuzuna, beynəlxalq əlaqələrimizə zərbə vurmaq məqsədi daşıyır".

**Kənan**

# Naxçıvan istiqamətində mövqelərimiz yenidən atəşə tutulub

**Dünən saat 17:10-dan 17:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutub.**

Bu barədə Trend-ə Müdafiə Nazirliyinə istinadən xəbər verir. Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur. Qarşı tərəf cavab atəşi ilə susdurulub.Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Laçın və Kəlbəcərdə hərbi tikinti genişlənir

## Aqşin Kərimov: "Tank bölmələrinə üstünlük verilməsi xüsusi diqqətçəkən məqamdır"

Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Kəlbəcər və Laçın rayonlarında tikintisi davam edən bir neçə hərbi hissədə olublar. Tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

*Mövzu ilə bağlı siyasi-analitik Aqşin Kərimov "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki, işğaldan azad edilmiş ərazilərdə yeni hərbi hissələrin istifadəyə verilməsi Azərbaycanın strateji və hərbi üstünlüyünü artırır və bu amilləri dayanıqlı edir:* "Qeyd edək ki, bundan əvvəl Cəbrayılda, Zəngilanda, Qubadlıda Dövlət Sərhəd Xidmətinin hərbi hissələri fəaliyyətə başlayıb. Azərbaycan paralel olaraq Ağdam, Xocavənd, Xocalı ərazilərində də hərbi hissələr açıb. Bu hərbi hissələr isə Müdafiə Nazirliyinə məxsusdur. Hərbi hissələrin çoxluğu Qarabağ ərazisindəki erməni hərbi birləşmələrinin hər hansı hərbi hərəkətliliyinə barmaq yeri qoymur. Azərbaycanın indi Laçında və Kəlbəcərdə hərbi hissələr yaratması həm də dövlət sərhədinin möhkəmlənməsinə




xidmət edir. Dövlət Sərhəd Xidmətinin hərbi hissələri ilə birgə fəaliyyətin koordinasiyasını gücləndirir. Bu isə Ermənistan tərəfindən mümkün sərhəd təxribatlarına qarşı preventiv addımların tərkib hissəsidir".

**A.Kərimov bildirib ki, Laçın və Kəlbəcər rayonları üzrə hərbi obyektlərin sayının çox olması ordunun qarşısında duran məsələdir:** "Laçın və Kəlbəcərdə tank bölmələrinə üstünlük verilməsi xüsusilə diqqət çəkir. Tank bölmələri döyüşdə mühüm çəkiyə malikdir, tanklar quru döyüşlərində əsas hücum silahı olaraq önə çıxır. Ermənistanla dövlət sərhədi təşkil edən işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin çoxluq təşkil etməsi delimitasiya və demarkasiya prosesində Azərbaycanın əlini gücləndirən faktordur".

**Aynurə Pənahqızı**



# Paşinyan Rusiyanı qarşıdurmaya çəkir

*Ermənistanın davranışları Azərbaycan və Rusiyaya müəyyən problemlər yaradır*

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. Bununla bağlı Azərbaycan XİN məlumat yayıb. Nazirlər Azərbaycan-Ermənistan dövlət sərhədində mövcud olan vəziyyəti və üçtərəfli bəyanatların icrası ilə əlaqədar məsələləri, o cümlədən bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupunun fəaliyyətinə dair məsələləri müzakirə ediblər.

Tərəflər, eyni zamanda ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələlər, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər haqqında danışıblar.

**”Müstəqil Mətbuat Mərkəzi” İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli tərəflər arasındakı telefon danışığını ”Şərq”ə şərh edib:** ”Hazırda Ermənistanın davranışları Azərbaycan və Rusiyaya müəyyən problemlər yaradır. Paşinyan hakimiyyəti hərbi təxribatlar törətməklə Cənubi Qafqazın inkişaf perspektivlərini ciddi təhlükə altına salmaqdadır. Rəsmi İrəvan öz hərbi-siyasi avantüraları ilə hətta Rusiyanı şantaj etməyə belə cəhd göstərir. Paşinyan hakimiyyəti hazırda Rusiyanı Azərbaycanla hərbi-siyasi qarşıdurmaya bulaşdırmağa can atır. Eyni zamanda Kremli şantaj edərək, Azərbaycan-Ermənistan sərhədlərində Rusiya sərhədçilərinin yerləşdirilməsinə çalışır. Rəsmi İrəvan bununla sərhədlərin delimitasiya və demarkasiya prosesini əngəlləyə biləcəyinə ümid bəsləyir. Ancaq Kremldə Paşinyan hakimiyyətinin niyyətlərini anlamamış deyillər. Ona görə də Rusiya Azərbaycan-Ermənistan sərhədlərində hərbi kontingent yerləşdirməkdə qətiyyən həvəsli deyil. Rusiya Xarisi İşlər Nazirliyindən verilən son açıqlamada da bu məsələyə üstüörtülü eyhamlar vurulmuşdu. Belə ki, Kreml Rusiya sərhədçilərinin bölgədə yerləşdirilməsi üçün qarşılıqlı etimadın və Azərbaycanın razılığının olmasının vacibliyini vurğulamışdı. Bununla diplomatik şəkildə rəsmi İrəvana anlatmağa çalışırlar ki, iki ölkə arasında sərhədlər dəqiqləşdirilməyib. Əgər Rusiya sərhədçiləri bölgəyə gətirilərsə, onların yerləşəcəyi ərazi Azərbaycana da aid ola bilər. Rəsmi Bakı isə öz ərazisində kənar ölkələrin sərhədçilərini istəmir. Bütün bunlar o deməkdir ki, Rusiya sərhəd bölgəsinə öz sərhədçilərini yerləşdirməkdən imtina etmir. Ancaq bunun üçün rəsmi İrəvana əvvəlcə Ermənistanın sərhədlərinin hüquqi cəhətdən dəqiqləşdirilməsini məsləhət görür. Yəni Kreml bölgədə Azərbaycanı narazı sala biləcək hər hansı addımın atılmasında o qədər də maraqlı deyil. Ola bilsin ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və Rusiyanın Xarici işlər naziri Sergey Lavrov arasında aparılan telefon danışığında da məhz bu kimi məsələlər müzakirə edilib. Rəsmi açıqlamada Azərbaycan və Rusiyanın üçtərəfli anlaşmaların icrasıyla bağlı məsələlər ön plana keçirilir. Bu isə o deməkdir ki, həm rəsmi Bakı, həm də Kreml üçtərəfli anlaşmaların icrasında israrlı mövqe tuturlar. Çünki yalnız üçtərəfli anlaşmalar icra olunacağı təqdirdə, regionda bütün nəqliyyat-kommunikasiya xətləri açıla bilər. Və bu, siyasi-ideoloji revanşizmin girovuna çevrilmiş Ermənistan istisna olmaqla, bütün dövlətlərə sərfəlidir”.

**E.Xalidbəylinin sözlərinə görə, Qazaxın yeddi kəndinin qaytarılması məsələsi də gündəmdədir:** ”Böyük ehtimalla Azərbaycan və Rusiya xarici işlər nazirləri məhz regionun inkişaf perspektivlərini və onlara əngəl törədən məsələləri müzakirə etmiş ola bilərlər. Son günlər Ermənistan ərazisində yeni rus hərbi kontingentinin yerləşdirilməsi barədə də müxtəlif məlumatlar var. Bəzi məlumatlarda rus hərbi kontingentinin Azərbaycanın Qazax rayonuna yaxın bölgədə yerləşdirildiyi bildirilir. Əgər bu, doğrudursa, deməli, Qazaxın işğal altında olan 7 kəndi tezliklə Azərbaycana qaytarıla bilər. Bu, qətiyyən istisna deyil. Hətta bu barədə Ermənistan mətbuatı da müxtəlif ehtimallar irəli sürməyə başlayıb. Rusiya hərbi kontingentinin həmin bölgədə yerləşdirilməsi isə bu prosesə hazırlıq xarakteri də daşıya bilər. Çünki həmin 7 kənd anklav ərazidir. Azərbaycan qoşunları həmin 7 kəndə girdikdən sonra rus hərbi kontingenti, məsələn, atəşkəs rejiminə riayət olunmasına nəzarət missiyasını öz üzərinə götürə bilər. Yəqin, Rusiya xarici işlər naziri telefon danışığında bu məsələ ilə bağlı da azərbaycanlı həmkarı ilə müəyyən müzakirələr aparmış ola bilər. Eyni zamanda, Azərbaycan və Rusiyanın ortaq maraqlarının təmin edilməsi istiqamətində də fikir mübadiləsinin aparıldığı istisna deyil. Hər halda, rəsmi Bakı və Kremlin üçtərəfli anlaşmaların icrasında israr etdikləri, regional nəqliyyat-kommunikasiya xətlərinin açılmasında daha sürətli davranılmasına üstünlük verdikləri qətiyyən diqqətdən yayınmır”.

**Kənan Novruzov**



## Musiqi və bayraqlarla: Bakıda Rafael Ağayevi belə qarşıladılar



**Karate üzrə Azərbaycan yığmasının üzvləri Tokidan Bakıya qayıdıblar.**

Heydər Əliyev hava limanında Tokio Olimpiya Oyunlarından qayıdan karate üzrə Azərbaycan yığmasının üzvlərini qarşılamaq üçün KİV nümayəndələri, pərəstişkarlar, Karate Federasiyasının nümayəndələri yığışıblar.

Xatırladaq ki, Rafael Ağayev (75 kq) və İrina Zaretska (61 kq) Tokio-2020 Olimpiya Oyunlarında gümüş medal qazanıblar.

”Dünya karatesinin brilyantı” və Azərbaycan yığmasının liderini Bakıda qəhrəman kimi qarşıladılar. Hava limanında hər kəs onunla selfi çəkdirmək istəyirdi, Rafael Ağayevi hətta bir neçə dəfə atıb-tutdular.

## İqlim dəyişikliyi 25 milyon insanın köçünə səbəb olub



**İqlim dəyişikliyinin səbəb olduğu quraqlıq, sel, qida və yemək çatışmazlığı kimi amillərlə əlaqədar 2020-ci ildə 94 ölkədə 25 milyon insan köç etməli olub.**

Trend-in məlumatına görə, bu barədə BMT-nin İqlim dəyişiklikləri üzrə hökumətlərarası ekspert qrupunun yeni hesabatında deyilir.

Hesabatda qeyd olunur ki, iqlim dəyişiklikləri Yer kürəsində ekstremal quraqlıqlara, qasırğa, daşqın və meşə yanğınlarının artmasına yol açır.

2050-ci ilədək 140 milyon insanın yaşadığı yerlərdən köç edəcəyi proqnozlaşdırılır.

# Tezliklə ruslar Paşinyanı tutub Moskvaya aparacaqlar



Asif Nərimanlı: “...Sərhəd müqaviləsini imzalamağa məcbur edəcəyi gözləniləndir”

"Rusiya XİN-in rəsmisi Aleksandr Bikantov bildirib ki, Azərbaycan-Ermənistan sərhədi boyunca rus sərhədçilərin yerləşdirilməsi mümkün deyil, çünki sərhədin demarkasiyası həyata keçirilməyib".

**Rusiya rəsmisinin açıqlamasını ”Şərq”ə şərh edən Asif Nərimanlı deyib ki, Moskva bununla Paşinyanın ”sərhədçilərin və KTMT-nin monitorinq qrupunun gəlişi” istəyini rədd edir və öz planını işə salır:** ”Rusiyanın Azərbaycan-Ermənistan sərhədində dayanması bölgədəki strateji maraqları baxımından əhəmiyyətlidir. Xüsusilə Qarabağ münaqişəsinin həllindən sonra bunun reallaşması da Moskva üçün hava-su kimi lazımdır. Lakin sərhədlər müəyyənləşmədən bunu etmək Moskvaya sərf etmir. Bununla vasitəçi yox, tərəf ola bilər və ermənilər üçün sərhəd müqaviləsinin günahkarına çevrilər. Rusiyanın istəyi sərhədin delimitasiya və demarkasiya prosesinin yekunlaşması, ardınca bölgəyə yerləşməkdir. Prosesin uzanması rusların qarşısında alternativləri gücləndirir və Paşinyanın şantaj imkanlarını genişləndirir. Misal üçün, Fransa ordusunun bölgəyə gətirilməsi kimi və s. Bu baxımdan, rusların tezliklə Paşinyanı Moskvaya aparacağı və sərhəd müqaviləsini imzalamağa məcbur edəcəyi gözləniləndir”.



**İsmayıl**

# “Gürcüstanın ərazi bütövlüyündə mövqeyimiz dəyişməzdir”

## Turab Rzayev: “Gürcüstandan daha gözəl dostluq və qardaşlıq inşa etməyi gözləyirik”



“Azərbaycan beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində Gürcüstanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir".

Bu, Azərbaycan Xarici İşlər Nazirliyinin "Tvitter"dəki paylaşımında əksini tapıb. Qeyd edilib ki, Azərbaycan-Gürcüstan münasibətləri beynəlxalq hüququn əsas prinsiplərinə hörmətə və sadiqliyə əsaslanan strateji tərəfdaşlıqdan ibarətdir.

**İki ölkə arasındakı əlaqələri “Şərq”ə şərh edən siyasi analitik Turab Rzayev bildirib ki, Azərbaycan hər zaman digər ölkələrin ərazi bütövlüyünü qəbul edir:**

”Bu barədə mövqeyimiz hər zaman qəti olub. Ona görə də bütün mübahisəli məsələlər olsa belə, Azərbaycan Gürcüstanın, həmçinin Krım və Donbas məsələsində Ukraynanın ərazi bütövlüyünü tanıyır. Dövlətimiz ərazi bütövlüyünün toxunulmazlığına dair beynəlxalq hüququn mövqeyini prinsipial olaraq izləyir. Gürcüstan bizim üçün sadəcə ərazi bütövlüyünü dəstəklədiyimiz yox, həm də dost və qonşu ölkədir. Hər zaman Gürcüstanın dar məqamında yanında olmağa çalışmışıq”.

**T.Rzayev qeyd edib ki, bu yaxınlarda Rusiya ordusunun Gürcüstana girməsi və Abxaziya ilə Osetiyanı işğal etməsinin ildönümü baş tutdu:**

”Fikrimcə, bu hadisə Azərbaycan XİN tərəfindən belə açıqlamanın verilməsinə səbəb olub. Məlumdur ki, Gürcüstana gedən qaz və elektrik xətləri Rusiya tərəfindən kəsilmişdi, ancaq Azərbaycan Gürcüstana qaz yönəltdi ki, şaxtalı günlərdə əhali donmasın.

Həmçinin həmin ölkəni enerji ilə təmin etdik. Bir sözlə, ölkəmiz lojistik olaraq qonşu dövlətlərə hər zaman humanitar yardımların çatdırılmasına kömək edib. Azərbaycan dost və qonşu Gürcüstan dövlətinin yanındadır.

Biz hər zaman Gürcüstanın ərazi bütövlüyünü tanıyırıq və tanımağa davam edəcəyik, mövqeyimizdə heç bir dəyişiklik ola bilməz. Bunun qarşılığında da Gürcüstandan dost və qardaşlıq münasibəti, Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə prinsipial mövqe tutmasını gözləyirik.

Bundan sonra da hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq, Gürcüstan rəhbərliyindən Azərbaycanla münaqişə yaradan mövzulardan uzaq durmağa, əksinə, iki xalqı daha da birləşdirəcək mövzular barədə danışıb, daha gözəl dostluq və qardaşlıq inşa etməyi gözləyirik”.

**Yeganə Bayramova**

# Ölkədə neft hasilatı azalır

## Natiq Cəfərli: “Azəri-Çıraq-Günəşlidən neft hasilatı keçən ilin ilk 6 ayı ilə müqayisədə aşağı düşüb”



**“Dəfələrlə vurğulayırdım ki, ölkədə neft hasilatı azalır, ona görə də qiymətin 70 dollar civarında olması ancaq hasilatın azalmasını kompensasiya edir”.**

Bu barədə iqtisadçı-ekspert Natiq Cəfərli deyib.

Ekspert bildirib ki, bu ilin ilk 6 ayında Azəri-Çıraq-Günəşlidən neft hasilatı keçən ilin ilk 6 ayı ilə müqayisədə aşağı düşüb: ”Neft hasilatı 12 milyon tondan 11 milyon tona enib. 2020-ci ilə nisbətən belə bir geriləmənin olması OPEC+ anlaşmasına görə deyil. Bu, təbii səbəblərdən, yataqların istismar müddətinin başa çatmaq üzrə olduğundan qaynaqlanır. Çünki OPEC+ anlaşmasına görə, keçən il Azərbaycan hasilatı azaltmalı idi. Buna baxmayaraq, keçən il ilk 6 ayda 12 milyon ton neft hasil edilib. Bu il isə anlaşmaya görə, Azərbaycan hasilatı bir qədər artıra bilərdi, amma bu baş vermədi, əksinə, 6 aya 1 milyon ton hasilat azaldı. Daha bir maraqlı məlumat odur ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) bu ilin ilk 6 ayında SOCAR-a 1,6 milyard kub metr pulsuz səmt qazı verib. SOCAR isə pulsuz aldığı qazın qiymətini əhali üçün artırdı, limitin azalması qiymət artımı deməkdir. Azərbaycan əhalisi ildə 4-5 milyard kub metr təbii qaz istehlak edir. Onun da 3 milyard kub metrini ABƏŞ havayı verir”.

**İsmayıl**

# İran müstəqil Azərbaycanı heç vaxt həzm etməyəcək

## “Rəsmi Tehrandan ölkəmizə qarşı xoş olmayan siyasəti daima gözləməliyik”



“İran-Azərbaycan əlaqələri heç vaxt yüksək səviyyədə olmayacaq". Bu sözləri “Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, buna baxmayaraq bu ölkə ilə əməkdaşlıq etmək və əlaqələri normal vəziyyətdə saxlamalıyıq:

”İran hakimiyyəti Azərbaycanın müstəqilliyini İranda yaşayan 40 milyona yaxın azərbaycanlı üçün mayak hesab edir. Və Azərbaycanın böyük bir ərazisi bu ölkənin ərazisi vahidindədir. Ona görə də biz rəsmi Tehrandan ölkəmizə qarşı xoş olmayan siyasəti daima gözləməliyik”.

**M.Əsədullazadə qeyd edib ki, Azərbaycan-İran əlaqələrində iqtisadi və siyasi əməkdaşlığı qorumalı və milli maraqlarımıza zərər gəlmədən bu siyasəti həyata keçirməliyik:** ”Amma zamanla Cənubi Azərbaycanla bağlı siyasətimizi də gündəmdə saxlamalıyıq. Vətən müharibəsində İran ərazisindən Ermənistana Rusiya hərbi texnikalarının daşınması, rəsmi Tehranın bizə açıq şəkildə mövqeyinin nümayişi idi. Biz çalışmalıyıq ki, İranın məzhəbsəl siyasətinin ölkə daxilində inkişafının qarşısını alaq. İran öz zərərli məzhəb siyasəti vasitəsilə Azərbaycana təsir etməyə çalışır. Amma bunun qarşısı daima alınır və bu siyasəti uğurlu olmayacaq.

**Politoloq vurğulayıb ki, İran-Azərbaycan əlaqələrində problemlər Tehran tərəfindən qaynaqlanır:** ”İran Azərbaycan bayrağına qarşı diqqətsizdirsə, Bakıda da biz eyni analoji jesti edə bilərik. Milli Məclisin sədri xanım Sahibə Qafarovanın İran prezidenti ilə görüşdə bayraq məsələsinə gəldikdə isə bu, protokol qaydalarına uyğundur”.

**Aynurə**



# “Yekun sülh sazişi imzalanacaq”

## “Amma ermənilər inadkarlıqdan əl çəkmirlər”

Ötən gün saat 00:10-dan 00:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan ordusunun mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutub.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur. Qarşı tərəf cavab atəşi ilə susdurulub. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**Millət vəkili Elman Məmmədov düşmənin həftələrdir davam edən təxribatları barədə ”Şərq”ə danışıb:**

”Ermənistan dövlət kimi özünü doğrulda bilmədi. O, ianələr hesabına dolanan toplumdur. Əgər müstəqildirsə, niyə sərhəddi digər dövlətin hərbçiləri qoruyur?!”.

**E.Məmmədovun fikrincə, təxribatların qarşısı alınmalıdır:**

”Yekun sülh sazişi imzalanacaq. Amma ermənilər inadkarlıqdan əl çəkmirlər. Odur ki, onların bu tərbiyəsizliyinin qarşısını almaqdan ötrü Azərbaycan sülhə məcburetmə əməliyyatına başlamalıdır. Bizim bundan başqa yolumuz yoxdur. Hərbi gücdən növbəti dəfə istifadə etməklə qarşı tərəfi tamamilə diz çökdürəcəyik. Beləliklə, İrəvan yenə tələm-tələsik müqavilə imzalamağa məcbur qalacaq. Anti-terror əməliyyatları nəticəsində həm torpaqlarımızdakı separatçı rejim ləğv ediləcək, həm də sərhəddə daimi atəşkəsə nail olacağıq. Görünür, ”ilanın başını tam əzmək lazımdır”...”.

**Kənan**



## Jurnalistlərin həyatı niyə sığortalanmasın

### Ələsgər Məmmədli: “Bunu işçi özü fərdi şəkildə də edə bilər, çalışdığı qurum da”

**”İnsan həyatının dəyəri nə qədərdir? Müharibə zonasında istifadə olunan əksər kameralar və avadanlıqlar sığortalanıb, jurnalistlərin çoxu isə yox. Beləliklə, media holdinqlər hər partlayışdan itkisiz çıxırlar, jurnalistlər isə - ölüblərsə ailələri əksər hallarda adi kompensasiya da ala bilmirlər”.**

*Bu sözləri siyasi analitik Turab Rzayev deyib.*

*Media hüquqşünası Ələsgər Məmmədli “Şərq”ə açıqlamasında sözügedən məsələyə münasibət bildirib:* ”Müharibə zamanı həlak olan jurnalistlərə şəhid statusu verilir. Onların ailələri şəhid ailələrinin aldığı qədər kompensasiya ilə təmin olunurlar. Qaldırılan məsələ isə daha çox həyat sığortası ilə bağlıdır. Bunu işçi özü fərdi şəkildə də edə bilər, çalışdığı qurum da.

Düzdür, icbari deyil. Amma işçi, ailəsini düşünürsə, yəqin ki, bunu etməlidir. İş yerlərində əmək fəaliyyətinin sığortası zamanı bu məsələ də həllini tapa bilər.

Hər işçinin əməkhaqqından müəyyən məbləğdə vəsait tutulmasına baxmayaraq, o, əmək qabiliyyətini itirən zaman ailəsinə kompensasiya ödənir. Fikrimcə, bu, təşviq edilməlidir”.

**Kənan**

# 24 jurnalist Ankarada təlimə qatılıb



### “Bizim buna çox böyük ehtiyacımız var idi”



Ankarada "Hərbi jurnalistika" təlim proqramına start verilib. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA), Anadolu Agentliyinin, Türkiyə Polis Akademiyasının və Türk Əməkdaşlıq, Koordinasiya Agentliyinin (TİKA) təşkilatçılığı ilə keçirilən təlimlərə Azərbaycandan 24 jurnalist qatılıb.

Avqustun 20-dək davam edəcək təlimlərdə iştirakçılara jurnalistika, şəxsi təhlükəsizlik, müharibə hüququ, ilk yardım, müharibə zamanı davranış qaydaları, suda həyatda qalma, kimyəvi və bioloji silahların tətbiqi zamanı qorunma, fövqəladə vəziyyətlərdə fəaliyyət və digər mövzularda məlumat veriləcək. Təxminən 60 faizi praktiki hissədən ibarət olacaq dərslərdə jurnalistlərə böhran, təbii fəlakət və müharibə bölgələrində fəaliyyət göstərən media nümayəndələrinin qarşılaşa biləcəyi çətinliklər və təhdidlərin dəf olunması mövzularında da təlimlər keçiriləcək. Bununla yanaşı, media nümayəndələri riskli bölgələrdə təşkil olunacaq təlimlərdə iştirak edəcəklər. Təlim proqramını uğurla başa vuran jurnalistlər beynəlxalq səviyyədə tanınan ”Hərbi jurnalistika sertifikatı” ilə təltif olunacaqlar.

**Media eksperti Azər Həsrət ”Şərq”ə təlimin əhəmiyyətindən danışıb. Ekspert qeyd edib ki, jurnalistlərin peşəkarlığının və biliklərinin artırılması yönündə atılan istənilən addım təqdirəlayiqdir:** ”Bu qeyd olunan tədbir həqiqətən də Azərbaycanın çox ehtiyac duyduğu tədbirdir. Təəssüflər olsun ki, illər ərzində Azərbaycanda bu sahədə sistemli işlər görülməyib. Halbuki, bizim buna çox böyük ehtiyacımız var idi. Müstəqil Azərbaycan jurnalistikası məhz elə müharibə, münaqişələr dövründə bəhrələnməyə başlayıb. Azərbaycan müstəqilliyə doğru ilk addımlarını atanda biz münaqişə içində olmuşuq. Ermənistandan soydaşlarımızın qovulması, 1990-cu ilin 20 yanvarında Bakıya Rusiya Sovet qoşunlarının yeridilməsi, Xocalı soyqırımı, bütövlükdə Qarabağın işğalı və s. bütün bunlar əlbəttə ki, münaqişə jurnalistikasının inkişafını şərtləndirən amillərdəndir. O dövrdə fərdi şəkildə bizim jurnalistlərimiz məhz hadisə meydanlarında özlərini yetişdirirdilər və kifayət qədər də səslərini dünyaya çatdıra bilirdilər. Lakin sonrakı mərhələdə, yəni Azərbaycan dinclik dövründə hərbi jurnalistikanı, münaqişə jurnalistikasını ümumiyyətlə, fövqəladə vəziyyət jurnalistikasını yetərincə inkişaf etdirmədi. Biz fürsəti əldən verdik”.

*A.Həsrət vurğulayıb ki, bu günləri jurnalistlərimizin yetişdirilməsi üçün yeni şərait yaranıb:* ”Hesab edirəm ki, bu şəraitdən səmərəli istifadə edilməlidir. Bu, Azərbaycan jurnalistlərinə sadəcə Azərbaycan üçün deyil, dünya jurnalistikası üçün daha faydalı olma yolunu açacaq. Yəni bizim jurnalistlərimiz istər öz ölkəmizlə bağlı, istərsə də başqa ölkələrdə münaqişə və yaxud da hərbi jurnalistika sahəsində öz sözlərini deyəcəklər. Bu baxımdan düşünürəm ki, qeyd olunan tədbir həqiqətən də təqdirəlayiqdir”.

**Aynurə Pənahqızı**

# Milli Məclis sədrinin İran səfərindən xatirə "qalmaqal"lar

### “Baş örtüyü” və bayraq məsələsi rəsmi protokollarla müəyyənləşir



"Artıq bir neçə gündür ki, ölkə gündəmini Milli Məclisin sədri Sahibə xanım Qafarovanın İran Prezidenti ilə görüşündə bayrağımızın olmamasından ucuz şou düzəldənlərin əsassız ittihamları zəbt edib. Sosial şəbəkələrdə və əlləri çatan digər internet resurslarında populist bayraq və vətən sevgisi ilə bağlı fikirləri sadə vətəndaşlarımızın da yanlış düşünməsinə səbəb olub. Əslində isə bu cür absurd fikir sahiblərinin bu cəhdləri Azərbaycanın və onun mövqelərinin ziddinə yönəlib".

**Bu sözləri ”Şərq”ə açıqlamasında ”Siyasi və Hüquqi Strateji Araşdırmalar Mərkəzi”nin rəhbəri, siyasi şərhçi Xəyal Bəşirov deyib.** O qeyd edib ki, ilk öncə nəzərə almaq lazımdır ki, hər bir dövlətin özünün daxili qanunları vardır və onun ərazisində bütün şəxslər, o cümlədən də digər dövlətlərin rəsmiləri bu qanunlara əməl etməlidirlər: ”Bu, Azərbaycanda da belədir və istənilən digər dövlətin rəsmisi ölkəmizə səfər edərkən bu qanunlara əməl edir. Nə qədər dünyəvi dövlət olsaq belə, yenə də ola bilər ki, bizdə qüvvədə olan hansısa qanun digər ölkə rəsmisi üçün təəccüblü olsun. Ancaq o bizim ölkədə olarkən buna mütləq əməl etməlidir. Teokratik dövlətlərdə, o cümlədən də cənub qonşumuz olan İran İslam Respublikasında dünyəvi ölkələr üçün fərqli qaydaların olması mümkündür. Ancaq bunun bayraq məsələsinə aidiyyəti yoxdur. Əvvəlcə başlayaq bayraq məsələsindən. ”Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” (2004), ”Azərbaycan Respublikasında xarici dövlətlərin və beynəlxalq təşkilatların bayraqlarının istifadəsi qaydaları haqqında” (2008) qanunlarımız olduğu kimi, digər dövlətlərin də analoji qanunvericilik aktları vardır. Bununla yanaşı beynəlxalq müstəvidə ümumi qəbul olunan protokol qaydaları da mövcuddur ki, bir ölkənin başçısı digər dövlətin başçısı ilə görüşərkən hər iki dövlətin bayrağı istifadə edilir. Ancaq bir dövlət başçısı digər ölkənin başqa rəsmilərini qəbul edərkən görüş zalında əsasən yalnız ev sahibi olan dövlətin bayrağı qoyulur. Bunun həmin dövlətlərin kiçikliyinə və ya böyüklüyünə heç bir aidiyyəti yoxdur. Bununla bağlı başqa rəsmi görüşlərə dair də çoxsaylı şəkillər vardır. O ki qaldı baş örtüyü məsələsinə, bu, konkret olaraq İran dövlətinin islam ənənələrinə dair qaydasıdır ki, digər dövlətdən olan xanımlar bu tələbə riayət etməlidir. Bu tələb təkcə Azərbaycan rəsmisinə aid deyil. Rusiya Federasiyası Dövlət Dumasının sədri Matviyenko da İran Prezidenti ilə görüşü zamanı bu qaydaya əməl edib. Onu da qeyd edim ki, Roma Papası ilə görüşdə də bu tələb var və ABŞ Prezidenti Donald Tramp Papa ilə görüşərkən həyat yoldaşı Melanya Tramp da baş örtüyündən istifadə edib”.



**Politoloq qeyd edib ki, bu kimi əsassız və absurd fikirlər Azərbaycan dövlətinin regionda və dünyada artmaqda olan mövqeyinə heç bir xələl gətirə bilməz**: ”Azərbaycan 44 günlük Vətən müharibəsində və ondan sonra atdığı möhtəşəm addımları ilə bir daha sübut etdi ki, o, bütün dünya dövlətləri və təşkilatları ilə münasibətlərində yalnız bərabər hüquqlu tərəfdaş kimi iştirak edir. Azərbaycan haqlı olduğu qədər də güclüdür və onunla heç bir dövlət və beynəlxalq hüququn digər bir subyekti güc dilində danışa bilməz. Bunu dövlət və xalq olaraq biz Ermənistanın və onun havadarlarının timsalında bütün dünyaya sübut etdik. Azərbaycan dövlətinin rəhbəri Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət heç vaxt xalqımıza və dövlətimizə qarşı hörmətsizlik edilməsinə imkan verməz və bu kimi cəhdləri cavabsız qoymaz!”.

**Aynurə Pənahqızı**

# Səfirlər Ermənistanın təxribatçı siyasətinə dəstək verir

## Zaur Məmmədov: "Bəzi Qərb dairələri bölgədəki yeni proseslərdə iştirak etmədiklərinə görə Azərbaycan və Ermənistan arasında problemlərin qalmasında maraqlı ola bilərlər"



**"Regionda Azərbaycanın yaratdığı yeni vəziyyətə xələl gətirmək istəyən qüvvələrin sayı artmaqdadır". Bunu Bakı Politoloqlar Klubunun sədri**

**Zaur Məmmədov "Şərq"ə açıqlamasında deyib.**

Politoloq bildirib ki, postmünaqişə dövrü üçün xarakterik olan tərəflərin barışdırılması, sülhün möhkəmləndirilməsi vacib olduğu dövrdə bəzi qüvvələr suyu bulandırmaqla məşğul olmaqdadır: "Ermənistanın dağıdıcı siyasətini tənqid etmək, İrəvanı üçtərəfli bəyanatın bəndlərini yerinə yetirməyə məcbur buraxmaq beynəlxalq ictimaiyyət, ələlxüsus qonşu dövlətlər üçün prioritet təşkil etməlidir. Lakin görünən odur ki, bəzi qonşu dövlətlərdəki müəyyən qruplar Cənubi Qafqazda yaranmış sülhün və tərəqqinin möhkəmləndirilməsinə istiqamətlənən yeni proseslərdən narazıdırlar. Ermənistanı müdafiə edən bəzi Qərb dairələri bölgədəki yeni proseslərdə iştirak etmədiklərinə görə Azərbaycan və Ermənistan arasında problemlərin qalmasında maraqlı ola bilərlər. Qonşu dövlətlər əksinə, Qarabağ və sərhədlər ərtafında bütün problemlərin tez zamanda həll edilməsinə tərəfdar olmalıdırlar. Son vaxtlar Kəlbəcərin və Naxçıvanın Ermənistanla sərhədində erməni ordusunun atəşkəsi pozmasının şahidiyik. Bəzi dövlətlərin Ermənistandakı səfirləri İrəvanın apardığı təxribatçı siyasətə dəstək olmaqdadır. Fransanın Ermənistandakı səfirinin absurd bəyanatı, ABŞ-ın Ermənistandakı səfirinin mütəmadi olaraq Azərbaycanla sərhədyanı ərazilərə səfər etməsi, ardınca İranın İrəvandakı səfirinin davranışı yolverilməzdir".

**İsmayıl Qocayev**

# Meşələr necə oldu, birdən-birə alışdı, yandı...

## Təkcə Türkiyə deyil, hədəfdə. Bütün dünyadır. Planetimizdir

Yanğınlar bitmir. Bir ərazidə yanğın buxovlanırsa, digər ərazidə alovlanır. Meşə yanğınları qardaş Türkiyə ilə məhdudlaşmır. Artıq Yunanıstanda da yanğınlar baş verir. Ölkəmizdə də bəzi bölgələrdən yanğın xəbərləri gəlməkdədir. Qubanın Ərməkli, Qəbələnin Solquca kəndləri ərazisində, Qusarda meşə massivlərində yanğınlar baş verib. Bu yanğınlar geniş əraziləri əhatə etməsə də, tələfata səbəb olmasa da, həyəcan təbili çalınması üçün kifayətdir. Meşələr niyə yanır? Təbiətin "ağ ciyərləri"nin bu şəkildə alova bürünməsinin səbəbləri hansılardır? Əlbəttə, təbii səbəblərlə yanaşı, insan amili, texnogen səbəblər, eləcə də terror, qəsd ehtimalları yüksəkdir.





**"Bəlkə də indiyədək 50 Azərbaycan boyda meşə massivlərini yandırıb külə döndəriblər"**

**Alovlu Türkiyə, Yunanıstan**

Türkiyədə günlərdir davam edən meşə yanğınları Antalyadan başladı, digər bölgələrə də yayıldı. İyul-avqust aylarında Türkiyənin cənub regionlarındakı meşələrdə baş vermiş yanğınlar ölkə tarixindəki ən pis meşə yanğınları mövsümü hesab edilir. Böyük qismi Aralıq dənizi, Egey, Mərmərə və Cənub-şərqi Anadolu regionlarındakı 47 ildə yaranmış 239 meşə yanğınında 9 nəfər həyatını itirib, yüzminlələ hektar meşə və yaşayış yeri külə dönüb, minlərlə heyvan tələf olub, təsərrüfatlara külli miqdarda ziyan dəyib. Antalyanın Manavqat ilçəsində yanğın başlayan zaman havanın temperaturu təxminən 37 dərəcə olub. Yanğının küləyin və isti havanın təsiri ilə yaşayış yerlərinə sıçradığı bildirilir. Daha sonra Adana, Osmaniyyə, Mərsin və Kayseri daxil olmaqla ümumilikdə 17 bölgədə eyni vaxtda yanğınlar başlayıb. Muğlada yanğınla mücadilə davam edir. Muğla şəhərinin Köyceyiz rayonunun Çövelek və Çökezli bölgələrində bir neçə yaşıllıq zolağında yanğın başlayıb. Yanğının yenidən gücləndiyi meşə massivlərinə Türkiyənin yanğınsöndürmə briqadaları cəlb olunub. Dalaman hava limanının yaxınlığında baş verən yanğın isə tamamilə söndürülüb. Muğlanın Ayıyolu adlanan meşə massivində qeydə alınan yanğın nəticəsində onlarla yüz yaşlı ağac tamamilə məhv olub. Olkənin yanğınsöndürmə xidmətinin əməkdaşları tərəfindən ciddi müdaxilələrə baxmayaraq, yaşıllıq zonasının böyük hissəsi külə dönüb. Yanğınlara qarşı mübarizə aparan 2 meşə işçisi yaralanıb. Qeyd edilir ki, Köyceyiz, Milas, Menteşə, Seydikəmər, Kavaklıdərə və Yatağan rayonlarında havadan və qurudan meşə yanğınlarına qarşı mübarizə davam edir. Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələri hazırda qardaş ölkədə yanğınla mücadiləyə yardım edir. FHN qüvvələri Muğla vilayətində yanğınların söndürülməsi əməliyyatlarını uğurla davam etdirirlər. "Anadolu" agentliyinin xəbərinə görə, Azərbaycanın bir helikopteri və bir təyyarəsi yanğınların söndürülməsində fəal iştirak edir. Eyni zamanda Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin Türkiyədə olan yanğın-xilasetmə qüvvələrinin 700-dən çox şəxsi heyəti 5 yerdə davam edən yanğının qarşısını almağa çalışır. Hazırda FHN-in qüvvələri tərəfindən Muğla vilayətindəki strateji əhəmiyyətli Kəmərköy və Yeniköy istilik elektrik stansiyalarının yanğından mühafizəsi davam etdirilir. Son məlumatlara görə, Türkiyədəki yanğınlar nəzarətə alınır artıq. Xatırladaq ki, Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələrinin növbəti - üçüncü qrupu Türkiyənin Muğla vilayətinə çatıb. Yanğın-xilasetmə qrupuna 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürən daxildir. Yanğınlar təkcə Türkiyə ilə məhdudlaşmır. Yunanıstanda da bir neçə gündür, yanğınlar davam edir. Evia adası, Mora yarımadası, Attika, Olimpiya, Mani bölgələrində hektarlarla meşə ərazisi alovlara bürünüb.

**...Azərbaycanda da yanğınlar baş verir**

Bu yay ölkəmiz üçün də, təəssüf ki, meşə yanğınları ilə yadda qalacaq. Xoşbəxtlikdən yanğınların miqyası geniş olmadı. Ağsu rayonu Gəgəli kəndi yaxınlığında mürəkkəb relyefli dağlıq ərazidə baş verən yanğın qısa zamanda söndürüldü. Yanğınsöndürmə əməliyyatlarında Fövqəladə Hallar Nazirliyinin müvafiq yanğın-xilasetmə qüvvələri və Aviasiya dəstəsinin helikopteri fəaliyyət göstərib. Ümumilikdə 300 hektar ərazidə baş vermiş yanğın nəticəsində quru ot, kol-kos və biçilmiş taxıl sahəsi yanıb. Qusar, Quba, Qəbələdəki meşə yanğınlarının da ətraf ərazilərə yayılmasının qarşısı alındı. Amma dünyanın müxtəlif yerlərində ard-arda meşə yanğınları baş verirsə, artıq yerli səbəblərlə yanaşı, qlobal səbəblərə də baxılmalıdır.

**Təbiidən daha çox qlobal və süni "səbəblər"**

**Sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, tarixdə indiyədək belə yanğınlara rast gəlinməyib:**

- Eyni vaxtda 200-400 yanğın ocaqlarının alovlanması praktiki mümkün deyil. Kimsə bunun nə elmi, nə nəzəri, nə də məntiqi izahını verə bilər. Açıq-aşkar görünür ki, bu yanğınlar süni şəkildə, məqsədli surətdə törədilir. Bunlar konkret süni törədilən yanğınlardır. Səbəblər də məlumdur. Türkiyə baxımından bu ölkəni "cəzalandırmaq" istəyirdir. Məlumdur ki, qardaş ölkə müstəqil siyasət yürüdür, dünyada nüfuzu hər keçən gün artmaqdadır. "S-400"lərin alınmasından tutmuş, digər regional məsələlərədək Türkiyəni sıxışdırmaq istəyirlər. Bu da məlum məsələdir ki, hər hansı bir ölkə, hətta ən super-güc ölkə də eyni vaxtda ölkənin bir neçə bölgəsində başlamış kütləvi, bu qədər geniş miqyaslı yanğınlarla baş edə bilməz. Buna heç bir ölkənin texniki imkanı yetməz. Meşələr necə oldu ki, birdən-birə belə alışdı, yandı? Belə məlumatlar var ki, təyyarələr müəyyən ərazilərin üzərindən uçarkən yerə kapsullar atır, həmin kapsullar bir müddət sonra yanğınların başlanmasına səbəb olur. Fikir versək görərik ki, yanğınlar qövsvari şəkildə baş verir. Bir zolaq üzərində. Deməli, kapsullar ehtimalı əsaslıdır. Bəzi videolar yayılmışdı, göründürdü ki, ağacların təpəsində yanğın başlayıb. Bu yanğın necə oldu ki, ağacın gövdəsinə toxunmamış, təpədə başladı?! Təkcə Türkiyə deyil, hədəfdə. Bütün dünyadır. Planetimizdir. Böyük Amazon meşələrinə od vurdular. Sibir meşələri yandı, Avstraliyada dəhşətli yanğınlar törədildi. Bilirsiz, bütün bunlar qlobal terrordur və bunu edənlərin qlobal məqsədləri var. Mülahizələrdən biri budur ki, qlobal terrorçular konkret ərazilərdə elektromaqnit sahələri yaratmaq istəyirlər, meşələr təbii şəraitdə buna mane olduğundan meşələri məhv etmək lazımdır. Bəlkə də indiyədək 50 Azərbaycan boyda meşə massivlərini yandırıb külə döndəriblər.

**E.Bayramlı bununla yanaşı texnogen amillərin də nəzərə alınmasını zəruri hesab edir:**

- Demirəm, hər yerdə qlobal terror dalğası keçir. Əlbəttə, lokal ərazilərdə insan amili meşə yanğınlarına səbəb olur. İstirahət guşələrinə gəzməyə gedənlər, meşəlik ərazilərdə istirahət edənlər səhlənkar, məsuliyyətsiz davranır, ətrafı zibilləməklə yanaşı, yanğın təhlükəsi də yaradırlar. Meşələrə nəzarət zəifdir, ya da heç yoxdur. Meşə massivləri tikinti şirkətlərinin öhdəsinə verilib, istədikləri qədər kəsir-doğrayır, kefləri istədiyi kimi evlər, istirahət mərkəzləri tikirlər, ekologiyaya qarşı terror edirlər. Türkiyənin özündə meşəlik ərazilər iş adamlarına, müəssisələrə, ayrı-ayrı şəxslərə "peşkəş" edilir. Sənaye müəssisələri tikirlər, turizm obyektləri açırlar. Meşələr məhv edilir, parçalanır, ərazilər satışa çıxarılır. Hər tərəfdən terrordur. Həm qlobal güclər, həm də yerli səbəblər baxımından. Bu sahəyə cavabdeh qurumlar məsuliyyət daşımalıdır, təhlükəsizlik tədbirlərini gücləndirməlidirlər.

**Məlahət Rzayeva**

# Məhərrəmlik başladı

## Qazılar Şurası əhaliyə müraciət edərək dini mərasimlərin karantin qaydalarına uyğun keçirilməsini tövsiyə edib



Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlaması ilə əlaqədar vətəndaşlara müraciət edib. Müraciətdə qeyd edilir ki, hicriqəməri təqvimi ilə 1442-ci il başa çatır, yeni 1443-cü ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə avqustun 10-na, Məhərrəm ayının 10-u - Aşura günü isə avqustun 19-na təsadüf edir.

Məhərrəm ayının Aşura günü İmam Hüseyn əleyhissalamın ailəsi və səhabələri ilə birlikdə Haqq uğrunda şəhadətə yetişdiyi gün kimi islam tarixinə faciəvi, eyni zamanda, qürurverici hadisə kimi daxil olub. İmam Hüseyn əleyhissalamın xatirəsinin, Kərbəla müsibətinin nəsillərin yaddaşında yaşadılması imanın, əqidəyə sadiqliyin, Vətən, torpaq naminə şəhidlik məktəbinin ən bariz nümunəsi və əbədi təcəssümüdür. Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamı torpaq və vətən uğrunda şəhidlikdir. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, erməni terrorunun və Qarabağ şəhidlərinin, 20 yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək vəfa borcumuzdur. QMİ Qazılar Şurası pandemiyanın bitmədiyini, yoluxma sayının yenidən artdığını diqqətə alaraq vətəndaşlara karantin qaydalarına ciddi şəkildə riayət etmələrini məsləhət görür və bildirir ki, məhərrəmlik bu il də dünyada davam edən koronavirus bəlası ilə əlaqədar müvəqqəti məhdudiyyətlər şəraitində keçəcək:

- Məcburi karantin tədbirləri virus təhlükəsinin çoxalmaması üçün insanların sıx toplaşmaması qaydalarını nəzərdə tutur. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, sosial məsafənin təmini mümkün olmayan kütləvi mərasimlərdə virusa yoluxma sayının artma təhlükəsini nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri tövsiyə edirlər ki, bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda ibadətlərin və mərasimlərinin karantin qaydalarına uyğun olaraq keçirilməsi vacibdir. Hər bir insanın borcudur ki, özünün, yaxınlarının və ətrafındakıların həyat və sağlamlığını təhlükədən uzaq tutsun. İmanlı insan təkcə öz canının deyil, başqalarının da canının qorunmasında Allah yanında məsul və mükəlləfdir. Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır.

**Məlahət Rzayeva**

## Bir gündə 9 nəfər vəfat etdi

### Azərbaycanda 1 101 nəfər koronavirusa yoluxub



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | |
|---|---|
| Ümumi yoluxanların sayı | 349316 |
| Ümumi sağalanların sayı | 334258 |
| Aktiv xəstə sayı | 10007 |
| Ümumi test sayı | 4094565 |
| Ümumi ölüm sayı | 5051 |

| Bu gün | 06.08.2021 |
|---|---|
| Yeni yoluxanların sayı | 1242 |
| Yeni sağalanların sayı | 345 |
| Bugünkü test sayı | 10819 |
| Bugünkü ölüm sayı | 8 |



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 101 yeni yoluxma faktı qeydə alınıb, 311 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 352 926 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 335 336 nəfər müalicə olunaraq sağalıb, 5 072 nəfər vəfat edib, aktiv xəstə sayı 12 518 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6947, ötən müddət ərzində isə ümumilikdə 4 123 715 test aparılıb.*

## Dənizdə batma təhlükəsi ilə üzləşən 2 nəfər xilas edilib



**Dünən batma təhlükəsi ilə üzləşən 2 nəfər xilas olunub.**

Fövqəladə Hallar Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən "Goradil" və "Bilgəh" sularda xilasetmə məntəqələrinin ərazisində çimərkən batma təhlükəsi ilə üzləşən 2 nəfər xilas edilib.

## Azərbaycan Ordusunun zabiti təlim zamanı həlak olub



**Avqustun 9-u səhər saatlarında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin poliqonunda keçirilən döyüş atışlı məşğələ zamanı bədbəxt hadisə baş verib. Hadisə zamanı leytenant Babayev İlqar Rüfət oğlu həlak olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, hadisənin səbəbləri araşdırılır.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

## Gədəbəydə avtomobil aşıb

### 8 nəfər xəsarət alıb



**Gədəbəydə yol-nəqliyyat hadisəsi baş verib.**

**Hadisə rayonun Saratovka kəndində qeydə alınıb.**

"Toyota" markalı minik maşını idarəetmədən çıxıb və aşıb.

(apa) Qəza zamanı səkkiz nəfər - 2008-ci il təvəllüdlü Musayev Aysel Vüqar qızı, 1987-ci il Məmmədova Aytəkin Həsən qızı, 1964-cü il təvəllüdlü Həsənova Çiçək İsmayıl qızı, 2008-ci il təvəllüdlü Musazadə Leyla Vüqar qızı, 1987-ci il təvəllüdlü Əsgərova Samirə Qəzənfər qızı, 1988-ci il təvəllüdlü Musayeva Vəfa Qəzənfər qızı, 2009-cu il təvəllüdlü Musazadə Fatimə Vüsal qızı və 2018-ci il təvəllüdlü Musayev Camal Vüsal oğlu xəsarət alaraq xəstəxanaya yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

# "Bəzi deputatlar bir kəlmə ilə özünü də, hökuməti də hədəfə çevirir"

## Əhməd Qəşəmoğlu: "Bəzilərinin səviyyələri, bəzilərinin isə təcrübəsi çatmır"



"Bəzi deputatlar sosial media alqoritmlərini yaxşı çözüblər. Alacaqları sərt reaksiyanı hesablayıb o reaksiyayla "starlaşdıqlarını" düşünürlər. Bircə şey edirlər, nəyə çox etiraz alacaqlarsa, onu paylaşırlar. Biləbilə. Nə vaxt trolluq edəcəklərini, kimlərdən necə reaksiya alacaqlarını yaxşı hesablayırlar. Bilirlər ki, reaksiya məsələnin mahiyyətindən daha çox danışılacaq, daha çox paylaşılacaq.

Bunlar gündəlik həyatda da çox qarşılaşdığımız trol ruhlu insanlardır. Aralarında "gənc yazıçı"sı da var, "ictimai xadimi" də, "ekspert"i də. Təkcə sosial şəbəkələrdə yoxdular, parlamentə də düşə bilirlər".

Bu sözləri media eksperti Rizvan Qənbərli deyib.

Həqiqətən, son vaxtlar deputatların özbaşınalıqları baş alıb gedir. Xaçmazın sabiq millət vəkili Eldəniz Səlimovun "əhvalatından" sonra təhsil eksperti, parlamentari Etibar Əliyevin "Facebook" statusunda "Ala qancıq tayadan düşməmiş" ifadəsini işlətməsi ciddi müzakirələrə səbəb olub. O, özü bunu zaman mənasında dediyini iddia edir. Bəlkə də, həqiqətən, belədir. Amma istənilən halda ziyalı şəxs, yüzlərlə seçicisi olan deputat niyə bu sözdən istifadə etsin? Özü də sosial şəbəkədə, ictimai məkanda...

**Sosioloq Əhməd Qəşəmoğlu analoji hallar barədə "Şərq"ə danışıb:** "1995-ci ildə növbəti parlament seçkiləri keçiriləndə mən oradakı elmi mərkəzin rəhbəri idim. Həmin vaxt da belə nataraz ifadələr işlədən deputatlar var idi. Bir dəfə keçmiş millət vəkili Fərəməz Maqsudov elələrinə səslənərək dedi ki, əvvəl kim olduğunuzu hər birimiz yaxşı bilirik.

Əvvəl kim idinizsə, yenə osunuz. Bəzi deputatlar özlərini yeni statusda fərqli aparmaq istəyirlər.

Amma formasnı tapa bilmirlər. Ona görə də bəzən özləri də bilmədən çıxışlarında, nitqlərində səhvlər edirlər. Bir qrup deputat "Millət vəkilidir, ancaq səsi çıxmır" iradına cavab olaraq fəallaşır. Lakin istənilən halda yenə də öz səviyyəsini göstərir. Bəzilərinin səviyyələri, bəzilərinin isə təcrübəsi çatmır. Əvvəllər də belə hallar olurdu: parlamentari bir kəlmə ilə həm özünü, həm də hökuməti tənqid hədəfinə çevirirdi".

**Ə.Qəşəmoğlunun fikrincə, deputatın toxunulmazlıq hüququ olmalıdır:** "Bu təkcə Azərbaycanda yox, dünyada tətbiq olunan praktikadır. Millət vəkilinin toxunulmazlıq hüququnun olması onun baş verən proseslərdə yaxından iştirak etməsinə imkan verir. Parlamentari toxunulmazlıq hüququna malik olanda özünü daha inamlı hesab edir.

Amma bundan sui-istifadə edən şəxs mütləq cəzalanmalı, ictimai tənqidə məruz qalmalıdır".

**Kənan Novruzov**

# İran əndazəni aşıbmı?



## *Reaksiyamızın keçmişə söykənən səbəbləri var*

"İranın mövcud rejimini heç vaxt sevməmişəm. Onlara qarşı ən çox yazı yazanlardan da biriyəm. Hətta yazdıqlarıma görə məni "Mossad agenti" də çıxarmışdılar. O vaxtdan Arazın o tayına gedə bilmirəm, Allah qismət də eləməsin".

**Bu sözləri siyasi şərhçi Asif Nərimanlı deyib.**

O, "Şərq"ə açıqlamasında parlament nümayəndəmizin Tehrana səfəri barədə bəzi məqamlara aydınlıq gətirib: "Amma bu münasibəti bir kənara qoyub, Milli Məclis sədrinin İran prezidenti ilə görüşündə Azərbaycan bayrağının qoyulmamasının səbəbinin protokol qaydasından irəli gəldiyini demək lazımdır. Bu, bütün dünyada qəbul edilmiş qaydadır: bir ölkənin prezidentinin digər ölkənin aşağı ranqlı nümayəndəsi ilə görüşdə bayraq qoyulmur.

Rəisinin Türkiyə parlamentinin sədri Mustafa Şentopla müzakirəsində də salonda türk bayrağı yox idi. Eləcə də digər ölkələrin nümayəndələri ilə görüşündə də.

Spikerin İran parlamentinin sədri ilə söhbəti zamanı Azərbaycan bayrağı qoyulmuşdu. Hər şey protokoldan irəli gəlir. İran parlamentinin sədri Azərbaycan prezidenti ilə görüşəndə də salonda İran bayrağı qoyulmur.

İran prezidentinin Paşinyanla görüşündə erməni bayrağının olması da protokol qaydalarından qaynaqlanır: Ermənistan parlament respublikasıdır və baş nazir ölkənin əsas rəhbəri sayılır. Yəni Rəisi ilə Paşinyan eyni ranqlıdır".

> "Bayraq məsələsində həssaslığımız da gözəldir, amma fikrimcə, əsaslandırmanı düzgün etməliyik"

**A.Nərimanlının fikrincə, məsələnin ajiotaj yaratması təsadüfi deyil:** "O başqa məsələ ki, İran Azərbaycanı yox, Ermənistanı sevir. Hətta İranda Azərbaycanı "Bakı respublikası" adlandıranlar var. Əslində bayraq məsələsinə cəmiyyətin bu qədər həssas yanaşması da İranın illərdir Azərbaycana qarşı apardığı siyasətdən irəli gəlir. Reaksiyamızın keçmişə söykənən səbəbləri var. Bayraq məsələsində həssaslığımız da gözəldir, amma fikrimcə, əsaslandırmanı düzgün etməliyik".

**Kənan Novruzov**



## "Qərb Şərqi xaraba qoyacaq"

Həşim Səhrablı: "Qərb bloku, xüsusilə ABŞ özünü məğlub göstərir"

**"Dünyadakı hazırkı siyasi vəziyyət Qərb blokunun, xüsusən ABŞ-ın sürətlə məğlubiyyətinə doğru gedir". Bu fikri hərbi-siyasi ekspert Həşim Səhrablı səsləndirib.**

H.Səhrablı dünyadakı geosiyasi durumu daha ətraflı "Şərq"ə danışıb: "Çin durmadan böyüyür, Rusiya ən azından postsovet məkanında "at oynadır", Türkiyə artıq NATO müttəfiqlərini izləmir, öz milli maraqlarından çıxış edir. Hindistan, Pakistan kimi ölkələr ram edilməz həddə çatır, İranda nəinki dövlət parçalanması, heç rejim də dəyişmədi, əksinə, təsir dairəsi genişlənən xətlə davam edir.

Bütün bu vəziyyətlərdə Qərb bloku, xüsusilə ABŞ özünü məğlub göstərir, yoxsa həqiqətən, proseslərin önünə keçə bilməyəcək qədər aciz vəziyyətdə qalıb?

Əgər ikinci variantdırsa, Şərqdə xaos başlayacaq, yox əgər birinci variant realdırsa, o halda müəyyən zaman sonra Qərb Şərqi xaraba qoyacaq. Hər halda, Şərqin gələcəyi yaxşı nələrsə vəd etmir".

**Kənan**

## Zas Ermənistanda kəşfiyyat aparacaq

Natiq Miri: "Paşinyan daxildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanı satmasına dair rəy yaradır"



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zas Ermənistanda səfərdədir. S.Zas nazir Nikol Paşinyan başda olmaqla Ermənistanın bir sıra rəsmiləri ilə görüşəcək. KTMT-nin baş katibi ilə Ermənistanın Xarici İşlər və Müdafiə nazirlikləri, habelə Təhlükəsizlik Şurasında bir sıra görüşlər keçiriləcəyi gözlənilir.**

Səfər sabah başa çatacaq.

**"Şərq" olaraq Zasın ilin-ayın bu çağında İrəvana səfərini politoloq Natiq Miri ilə müzakirə etdik:**

**- Sizcə, KTMT-nin baş katibi nə məqsədlə düşmən ölkəyə gedir?**

- KTMT-nin əsas gərginlik çərçivəsi Əfqanıstanda və Cənubi Qafqazdadır. İndiki gərgin məqamda onun səfəri təəccüblü deyil. Əlbəttə, qarşılıqlı münasibətlər barədə də danışılacaq. Belə ki, KTMT rəhbərliyinin Ermənistanla bağlı şübhələri var. Son vaxtlar sözügedən qurum aşağılanır. Paşinyan daxildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanı satmasına dair rəy yaradır. Üstəgəl, nəzərə almaq lazımdır ki, Paşinyanın KTMT-nin qoşunlarını sərhəddə yerləşdirməsi ilə bağlı rəsmi müraciəti var. Əlbəttə, bu məsələ də görüşdə müzakirə ediləcək.

**- Yeri gəlmişkən, rus hərbçilərinin Qazaxa yerləşməsi ilə bağlı nə düşünürsünüz?**

- Sözügedən proses faktiki olaraq gedir. Ortada konkret anlaşma və geosiyasi niyyət var. Bunun nə ilə nəticələnəcəyini indidən demək çətindir. Ermənistan müxalifəti Qazaxın yeddi kəndinin Azərbaycana qaytarılması barədə razılığın əldə edildiyini deyir. Fəqət, biz bunun nə qədər doğru olduğunu gələcəkdə görəcəyik. Yəni rus qoşunlarının Qazaxa yerləşməsi Azərbaycanın maraqlarına nə qədər uyğundursa, bir o qədər də təhlükəli ola bilər.

**- Təhlükə nədən ibarətdir?**

- Bu, kəndlərin bizə qaytarılmasından ötrü deyilsə, Azərbaycan üçün arzuolunmaz vəziyyət yaranacaq. Rusiyanın aqressiv siyasəti hər kəsə məlumdur. Gələcəkdə proseslər Bakı ilə Moskva arasında toqquşmalara da gətirib çıxara bilər. Hələlik Azərbaycan XİN baş verənlərə birmənalı aydınlıq gətirmir.

**- Əgər belədirsə, kəndlərin qaytarılması məsələsi necə olacaq?**

- Ümid edək ki, səfər əleyhimizə deyil. Əvvəlcə Paşinyanın, sonra isə Prezident İlham Əliyevin Moskvaya səfəri onu deməyə əsas verir ki, tərəflər arasında üçtərəfli razılıq əldə olunub. Fikrimcə, sərhədlərin müəyyənləşdirilməsi zamanı səkkiz kəndimiz geri veriləcək.

**Kənan Novruzov**

# ABŞ-ın mövqeyi sərt və qətidir

*"Taliban" danışıqlar masasına oturmasa əməliyyatlar davam edəcək*



Bir müddət əvvəl qoşunlarını Əfqanıstandan çəkən ABŞ "Taliban"ı bombalayıb. Belə ki, ABŞ-ın "B-52 Stratofortress" bombardmançı təyyarələri Əfqanıstanın Cauzcan əyalətində radikal "Taliban" hərəkatının mövqelərinə zərbələr endirib. Zərbələr nəticəsində silahlılar ağır itkilərə məruz qalıblar. Maraqlıdır, Əfqanıstandan qoşununu bir müddət əvvəl çəkən ABŞ niyə qəfildən bu cür addım atdı?

**Mövzu ilə bağlı Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Sədrəddin Soltan "Şərq"ə açıqlamasında ABŞ-ın bu addımını şərh edib.**

O, ilk olaraq diqqətə çatdırıb ki, ABŞ qoşunlarını Əfqanıstandan çıxarsa da, hərbi hava qüvvələrini oradan çıxaracağını deməyib. Bundan başqa, ABŞ-ın Əfqanıstanın mövcud hakimiyyəti, yəni Əşrəf Qəni qarşısında öhdəliyi var: "Xatırlayırsınızsa, bir müddət öncə Əşrəf Qəni Amerika Birləşmiş Ştatlarında səfərdə olmuş və C.Baydenlə görüşmüşdü. Bayden onda bildirmişdi ki, əfqan xalqı öz taleyini özü həll etməlidir. Həmçinin, o vurğulamışdı ki, ancaq bu o demək deyil ki, onlar əfqan xalqına yardım etməyəcək. Hesab edirəm ki, bu, Baydenin Əşrəf Qəniyə verdiyi sözün həyata keçməsidir. İkinci bir tərəfdən sual yaranır: "ABŞ "Taliban"ı niyə bombalayır?". Yəni bir yandan "Taliban"ı danışıqlara çağırır, o biri tərəfdən isə onun mövqelərini bombalayır. Hesab edirəm ki, bu hərəkəti ilə Amerika Birləşmiş Ştatları "Taliban"ı danışıqlar masasına oturmağa və hərbi əməliyyatları dayandırmağa məcbur etmək istəyir. Yəni bununla Amerika Birləşmiş Ştatları "Taliban"a çatdırmaq istəyir ki, hərbi əməliyyatları dayandırmasa, mövqelərini havadan bombalayacaq. Yəni Əfqanıstan hakimiyyətinə bu istiqamətdə yardımlar edəcək. Təbii ki, "Taliban" özü də elan edir ki, masalar qarşısında oturmağa hazırdı. Ancaq "Taliban" Əfqanıstan hakimiyyətini fakt qarşısında qoymağa çalışır. Bilirik ki, "Taliban" artıq ölkənin böyük ərazisinə nəzarət edir və beynəlxalq ictimaiyyətə çatdırmaq istəyir ki, Əfqanıstana nəzarəti o edir. Yəni onunla bir güc kimi razılaşmaq, şərtlərini qəbul etmək lazımdır".

**S.Soltan vurğulayıb ki, əgər "Taliban" bu istiqamətdə fəaliyyətini dayandırmazsa, ona qarşı yenidən genişmiqyaslı əməliyyatların başlayacağı istisna olunmur:** "Hətta "Taliban"a qarşı yenidən yeni sanksiyaların tətbiq olunacağı da ehtimal olunur. Bilirsiniz ki, "Taliban" dünyanın bir sıra dövlətləri, o cümlədən Rusiya, ABŞ, Avropa İttifaqı tərəfindən terrorçu təşkilatlar siyahısına daxil edilib. Bugünə qədər danışıqların getməsinə baxmayaraq, "Taliban" həmin siyahıdan çıxarılmayıb. Başqa sözlə, Əfqanıstan hakimiyyəti daxildə sabitliyi təmin etmək üçün dünyanın terrorçu kimi tanıdığı qruplaşma ilə danışıqlar aparır. Odur ki, "Taliban" yenidən danışıqlar masasında oturmazsa, bu o deməkdir ki, Əfqanıstanda hakimiyyət təmsilçiləri dediyi kimi "Taliban" dəyişməyib, əvvəlkindən daha da qəddarlaşıb". "Taliban" deyilənlərə riayət etməsə, onda qəddarlaşma ifadəsi təsdiqlənmiş olacaq".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



# Zəngəzur dəhlizi Azərbaycandan daha çox region ölkələrə lazımdır

## *Natiq Miri: "3+3" əməkdaşlıq formatı mütləq qurulmalıdır"*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bir müddət öncə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirakı zamanı Zəngəzur dəhlizi məsələsinə də toxunmuşdu.

Prezident qeyd etmişdi ki, Azərbaycanın qəti qələbə əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış geosiyasi vəziyyət hazırda bizim qonşularımızın regional inkişafla bağlı baxışlarımızı paylaşdığını göstərir: "Yeri gəlmişkən, biz bunu artıq qonşu ölkələrlə müzakirə etmişdik. Region necə inkişaf etməlidir, nəqliyyat, logistika ilə bağlı hansı layihələr olmalıdır, enerji əməkdaşlığı, ticarət və sairə. Beləliklə, bizdə heç bir fikir ayrılığı yoxdur. Doğrudur, Ermənistan hələ açıq şəkildə öz siyasətini bəyan etməyib, lakin onların de-fakto etdikləri də qənaətbəxşdir. Mən hökuməti nəzərdə tuturam. Xəzər dənizinin o tayında olan qonşularımızla münasibətlər uğurla inkişaf edir və onların hər biri ilə bizim konkret əməkdaşlıq istiqamətimiz var. Ən böyük hissə nəqliyyatla əlaqəlidir. Çünki Azərbaycan Türkiyə ilə dəmir yolu bağlantısı, dəniz limanı və avtomagistrallar kimi bütün nəqliyyat və logistika layihələrini tamamladıqdan sonra artıq önəmli nəqliyyat qovşağına çevrilib. Açıq dənizə çıxışımızın olmamasına baxmayaraq, biz şərq-qərb və cənub-şimal nəqliyyat dəhlizlərində fəal iştirak edirik. İndi isə bu layihələrə daha çox ölkələr cəlb olunur. Odur ki, Xəzər dənizinin o biri tayındakı qonşularımızla əməkdaşlığın əsas sahəsi nəqliyyatdır, lakin əməkdaşlıq təkcə bundan ibarət deyil. Biz qarşılıqlı ticarətin həcminin necə artırılması, qarşılıqlı investisiyaların yatırılması üçün daha yaxşı imkanların necə təmin olunması üzərində çox yaxından çalışırıq. Bildiyiniz kimi, bu gün biz kommunikasiyanın açılmasını, xüsusilə Zəngəzur dəhlizini müzakirə edirik". Prezidentin çıxışından da göründüyü kimi, Azərbaycan regionda şərtləri diktə edən ölkə olmaqla yanaşı, qonşu, eyni zamanda region dövlətləri üçün də iqtisadi inkişaf və siyasi sabitliyin təminatçısına çevrilib. **Politoloq Natiq Miri də "Şərq"ə açıqlamasında qeyd etdi ki, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycana yox, region ölkələrinin hamısı üçün əlverişli, geoiqtisadi və geo-siyasi maraqlarına uyğun gələn layihədir:**

- Burda təkcə Azərbaycanın əldə edəcəyi mənfəətdən söhbət gedə bilməz. Azərbaycan, məlumdur ki, iqtisadi inkişafını təmin etmiş, regionda söz sahibi olan bir dövlətdir. Azərbaycan nəhəng kommunikasiya, enerji layihələrinin icrasına başçılıq edən ölkədir. Zəngəzur dəhlizi Azərbaycandan daha artıq qonşu dövlətlərə, region ölkələrinə lazımdır. Zəngəzur dəhlizinin açılması ilə region ölkələri nə əldə edəcək? Birincisi, dəmiryolu xətti və avtomobil yolunun açılması ilə regional əməkdaşlıq üçün münbit şərait yaranacaq. Regional əməkdaşlıq güclənəcək. İkincisi, Zəngəzur dəhlizi bütün region ölkələrinin geosiyasi maraqlarına uyğun modeldir. Bu model sayəsində Rusiya Ermənistanla əlaqə saxlaya biləcək. Yaxın Şərqə də çıxış imkanı əldə edəcək. Bildiyimiz kimi hazırda Rusiyanın Yaxın Şərqə çıxışı Türkiyə vasitəsilədir. Təcavüzkar siyasəti nəticəsində region ölkələri ilə əməkdaşlıqdan məhrum olmuş Ermənistan da malların rahat daşınmasına nail olacaq. Ermənistan da MDB bazarlarına çıxış imkanı qazanacaq, yeni iqtisadi, maliyyə bazarlarına çıxışını təmin edəcək, investisiya qoyuluşu üçün imkanlar əldə edəcək. Eyni hal İrana da aiddir. İran da daha geniş regional əməkdaşlıq üçün əlavə dəmir yolu xətti əldə edir. Bu dəhliz qardaş Türkiyənin geosiyasi, geoiqtisadi maraqlarına uyğundur. Türkiyə bu dəhliz vasitəsilə türk dünyası ilə rahat və təminatlı bir yol - əlaqə əldə edir. Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirən amil roluna malik olacaq. Yəni diqqət edək, bu layihədə qazanmayan, gəlir əldə etməyən, iqtisadi inkişafını yüksəltməyənə dövlət yoxdur. Azərbaycanın Vətən müharibəsindəki şanlı qələbəsi region ölkələri üçün necə geniş imkanlar açır.

**N.Miri qeyd etdi ki, regionda sülh və əmin-amanlığın davamlı olması üçün "6-lıq" əməkdaşlıq formatının saxlanması vacibdir**:

- "3+3" əməkdaşlıq formatı mütləq qurulmalıdır. Cənubi Qafqaz ölkələri - Azərbaycan, Gürcüstan, Ermənistan və üstəgəl, Rusiya-Türkiyə-İran əməkdaşlıq formatı bütün region ölkələri üçün ən uyğun siyasi və iqtisadi modeldir. Doğrudur, hazırda Gürcüstan bir qədər tərəddüd edir, Rusiya ilə aralarındakı məlum səbəblərdən, amma hesab edirəm ki, regiondakı geo-iqtisadi irəliləyişdən Gürcüstan hökuməti də kənarda qalmaq istəməyəcək və onlar da regional əməkdaşlığa aktiv qoşulacaqlar. Regionda sülh və təhlükəsizlik istəyirlərsə, Azərbaycanın diktə etdiyi uyğun şərtlərlə razılaşmalıdırlar. Sülh, əmin-amanlıq və regional iqtisadi inkişaf bundan keçir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Hərbi hissələr elə tikilir ki, gələcəkdə hərbi şəhərcik olsun"

## *Emin Həsənli: "Ölkə başçısı hərbçilərimiz üçün lazım olan bütün şəraiti yaradır"*

Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən əsaslı təmir olunmuş hərbi hissələrə baxış keçirib. Nazirlikdən verilən məlumata görə, əvvəlcə tank bölmələrinin döyüş hazırlığının səviyyəsini yoxlayan Müdafiə naziri Zakir Həsənov burada hərbi qulluqçular üçün yaradılan şəraitlə maraqlanıb.



Nazirə məruzə olunub ki, hərbi hissədə şəxsi heyətin xidməti üçün bütün lazımi şərait yaradılıb. Sonra Müdafiə Nazirliyinin rəhbərliyi qeyd olunan ərazilərdə dislokasiya olunan digər hərbi hissələri ziyarət edib.

Bildirilib ki, hərbi hissələr müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə silah otaqları, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqələri, ərzaq və əşya anbarları, hamam-sanitar qovşaqları istifadəyə verilib. Ərazilərin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb.

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənlinin "Şərq"ə açıqlamasına görə, Müdafiə nazirinin bu səfəri birbaşa Ali Baş Komandanın göstərişi ilə həyata keçirilib:** "Cənab Prezident hər zaman ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərib, şəxsi heyətin sosial həyatının yaxşılaşdırılması üçün sərəncamlar imzalayıb. Torpaqlarımız azad ediləndən sonra minaların təmizlənməsi ilə yanaşı müxtəlif infrastruktur layihələri həyata keçirilir, paralel olaraq hərbi hissələr tikilir.

Həm Dövlət Sərhəd Xidmətinin (DSX), həm də Müdafiə Nazirliyinin hərbi hissələri açılır. Bunların hamısı dövlətimizin apardığı siyasətin nəticəsidir. Torpaqlarımızın azad edilməsi üçün nə qədər böyük fədakarlıq edildisə, minalanmış ərazilərin də təmizlənməsi, quruculuq və bərpa işlərinin görülməsi də bir fədakarlıqdır.

Hərbçilərimizin mühafizəsi yüksək səviyyədə olmalıdır. Bunun üçün də Azərbaycan dövləti onların yaxşı yaşaması və xidmət etməsi üçün nə lazımdırsa edir. Elə bir şərait qurulur ki, gələcəkdə hərbçilərimiz ailələrini də özləri ilə apara bilsinlər.

Dövlətimiz artıq hədəflərinə çatıb. İndi isə hərbi hissələr elə formada tikilir ki, gələcəkdə hərbi şəhərciklər olsun. Bu işlər qısa bir zamanda bərpa olunacaq, azad edilən ərazilər cənnət məkana çevriləcək, məcburi köçkünlərimiz geri qayıdacaq. Sərhədlərimiz də etibarlı əllərdədir.

Bu baxımdan ölkə başçısı hərbçilərimiz üçün lazım olan bütün şəraiti yaradır".

**Yeganə Bayramova**

# "Ziyalı söyülür, məsxərəyə qoyulur"

*"Amma izləyicisi müəllimin, yazıçının izləyicisindən qat-qat çoxdur"*



*"Bu gün Azərbaycanda bir mollanın, din xadiminin dinləyicisi, izləyicisi bir müəllimin, ziyalının, yazıçının, publisistin izləyicisindən qat-qat çoxdur. Üstəlik, dinləməklə yanaşı, mollanın dediyinə əməl edənlər də çoxdur.*

Aydın isə öz izləyicisini söyülə-söyülə, məsxərəyə qoyula-qoyula toplayır, onların da əksəriyyəti alqışlayır, "Əhsən", "Əla" deyir, sonra yenə gedib, öz işi ilə məşğul olur".

**Bu sözləri sosioloq Sahib Altay deyib.**

**O, daha ətraflı "Şərq"ə danışıb:**

"Mollaya qulaq asanların elm adamına qulaq asmaması, hüquqi cəmiyyət formalaşdırmaq istəməməsi bir yana, heç dini də olduğu kimi mənimsəyə bilmirlər.

Quran kimi ziddiyyətli, tarixi hadisələrin fonunda fəlsəfi oyunlarla, bədii təsvirlərlə zəngin bir kitabı mollalar sadəcə qəbir əzabının, qiyamətin, cəhənnəmin timsalında qorxu nitqləri fonunda kütləni manipulyasiya etməklə, özləri üçün qazanc mənbəyinə çeviriblər. İnanclı insan üçün təqdim olunan islam ona heç bir həyat, yaşayış, pozitivlik vəd etmir.

> Sosioloqdan sərt tənqid: "Ağzıköpüklü mollalar ancaq ölümdən, qəbiristanlıqdan, əzabdan, qaynar samovardan danışırlar"

Ağzıköpüklü mollalar ancaq ölümdən, qəbiristanlıqdan, əzabdan, qaynar samovardan danışırlar. Bir hissəsi sinə vurub, yas qurur, digər hissəsi də balağın ölçüsü kimi primitiv fikirlərlə çıxış edir.

Ortada qalan, "Nə sünniyəm, nə şiəyəm" deyənlər də "Əsas ürəyin təmiz olsun" təsəllisi ilə özlərini ovudurlar. 14 əsr öncə vəfat etmiş şəxsin 14 əsr sonra qırxını qeyd etməyini insanlara təbliğ edən sinəvuran mərsiyəxanlar insanlara nə din fəlsəfəsi anladacaqlar? Teztez kimlərdənsə eşidirik:

"Hacı filankəsi, Məşədi feşmankəsi, Kərbəlayi bəhmankəsi sağ olsun, bizim mənəviyyatımızı xilas etdi".

Hansı mənəviyyatı? Elmə yiyələnməyimiz, hüquqi cəmiyyət qurmağımız cəhənnəm, heç olmasa, inandığımıza təbii inanardıq. Bir daha qeyd edirəm, əlimizdə olmayan dəyərlər cəhənnəm, olanlar da bizə normal cəmiyyət qurmaq imkanı vermir...".

**Kənan Novruzov**

## Ərzaq ilin sonunadək yenə bahalaşacaq

Natiq Cəfərli: "Gömrük orqanlarında ciddi problemlər var"



**"Bahalaşma ilin sonunadək davam edəcək. Bunun obyektiv və subyektiv səbəbləri var".**

Bu sözləri ReAL partiyasının icraçı katibi, iqtisadçı-ekspert Natiq Cəfərli Azərbaycanda davam edən bahalaşma dalğası barədə "Şərq"ə danışarkən deyib. O, həmçinin qiymət artımına təsir edən məqamları sadalayıb: "Dünyada ərzaq indeksi bahalaşıb.

Bu, obyektiv amildir. İkinci bir tərəfdən isə ilin əvvəlində dizel yanacağının qiymətinin artması bahalaşmaya da təsir göstərdi. Xaricdən gələn məhsulların bahalaşması isə logistik xərclərin çoxalması ilə əlaqəlidir.

Həmçinin gömrük orqanlarında ciddi problemlər var. Gömrük Komitəsi hər ay fəxrlə plandan daha artıq vəsait yığdığını açıqlayır.

Bu o deməkdir ki, gömrüyün son ödəyicisi vətəndaşdır. Başqa sözlə, Gömrük Komitəsinin daha çox vəsait yığması insanların mal və xidmətləri daha baha qiymətə alması ilə nəticələnir".

**Kənan**




## "Bizon"un içindən şüşə qırıqları çıxıb

Şair Elşad Baratın iddiası şübhə doğurdu

**Şair Elşad Barat içdiyi "Bizon" enerji içkisinin içindən şüşə qırıntılarının çıxdığını iddia edib. O, bu barədə özünün "Facebook" səhifəsində yazıb: "Sol əlimdəki şüşə sağ əlimdəki "Bizon"un içindən çıxdı. Qapağı açdım, xırda-xırda, nazik şüşələr ilk qurtumda getdi.**

Sanki fiziki hesablamalar aparılıb, bizonun sıxlığı şüşənin sıxlığından çox olduğu üçün şüşə üzdə qalır ki, susuzluqdan ciyəri yanan adam alıb başına çəkəndə ilk qurtumda şüşəni udmuş olsun.

Yaxında ölüb eləsəm, səbəbi "Bizon"dur".

Oxşar enerji içkilərinin zərərləri haqqında indiyədək dəfələrlə yazılıb, deyilib. Bu, ayrı məsələ. Amma istehlakçılara belə hörmətsizlik eləmək nə qədər doğrudur?! Bəs həmin şüşələr dili-dodağı kəssə necə olacaq?!

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov sözügedən iddialar barədə "Şərq"ə deyib ki, analoji hallar əvvəllər də olub:** "Məsələn, çörəyin içindən sap çıxıb və s. Amma dəmir qabdan şüşə çıxması barədə məlumat dezinformasiya da ola bilər. Çox güman bu, şirkətin nüfuzuna xələl gətirmək üçündür. Belə ki, sözügedən ərzaq məhsulunun istehsal mexanizmini nəzərə alsaq, belə bir ehtimal, demək olar, yoxdur. Şikayətçi bizə müraciət etsə, ona köməklik göstərərik. Həm də "Bizon" kimi zərərli içkini, ümumiyyətlə, içməyə dəyməz".

**Kənan Novruzov**

# Gənc əsgərlərin karantin rejimini bir kimsə poza bilməz

*Ədalət Verdiyev: "Görüş qadağandırsa, bu, hər kəsə aiddir və əmr ləğv olunana qədər qüvvədədir"*



Dünən Azərbaycan ordusunun hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib. Bəzi vətəndaşlar pandemiya ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejiminin tələblərini və hərbi hissənin ərazisinə daxilolma qaydalarını kobud şəkildə pozmaqla hərbi hissənin ərazisinə daxil olmağa, əsgərlərlə görüşməyə cəhd ediblər.

Hərbi hissə komandanlığı bu cür addımların qarşısının alınması məqsədi ilə müvafiq tədbirlər görüb. Lakin uzaq yerlərdən gələn bəzi valideynlərin israrlı xahişləri və uzaq yol qət etmələri nəzərə alınaraq xüsusi karantin rejiminin tələblərinə ciddi riayət edilməklə onların öz övladları ilə qısamüddətli görüş keçirmələrinə şərait yaradılıb.

Müdafiə Nazirliyi bildirir ki, COVID-19 virusunun yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi qaydalarının tələblərinə müvafiq olaraq əsgər valideynlərinin və yaxınlarının şəxsi heyətlə görüşlərinə ciddi məhdudiyyətlər tətbiq olunur: "Ordu sıralarında COVID-19 pandemiyasının yayılmasının qarşısını almaq məqsədilə hərbi qulluqçuların yaxın ailə üzvləri və qohumlarını ölkə miqyasında və orduda tətbiq olunan karantin qaydalarına ciddi riayət etməyə çağırırıq".

**Mövcud durumu "Şərq"ə dəyərləndirən hərbi ekspert Ədalət Verdiyev söyləyib ki, nəinki pandemiya dövründə, hətta normal həyat sürdüyümüz zamanlarda belə gənc əsgərlərin hərbi andı içənə qədər valideynləri ilə görüşməsi qadağandır:** "Bu, həmin əsgərlərin həm iqlim, həm də qida rasionunun dəyişməsi ilə əlaqədar karantində saxlanılmaqla onların sağlamlığının mühafizəsinin effektiv olması məqsədi ilə atılan addımdır. Təəssüf ki, Müdafiə Nazirliyinin qeyd etdiyi hərbi hissədə vətəndaşlarımız qadağaları nəzərə almayaraq ləğv edilən görüşdən narazılıqlarını kobud şəkildə ifadə ediblər.

36 ildir ki, bu sahədəyəm və Azərbaycan xalqının heç bir zaman orduya, onun hissə və bölmələrinin infrastrukturuna ziyan verməsi faktına rast gəlməmişdim. Bu, ayrı-ayrılıqda kiçik faktlar ola bilər, lakin hadisənin kütləvi şəkildə baş verməsi ilk dəfədir. Maraqlısı odur ki, nazirlik görüşün olmayacağını əvvəlcədən elan etdiyini deyir.

Nazirliyin pandemiya dövründə şəxsi heyətlə görüşünü qadağan edən əmrinin açıq şəkildə mətbuatda paylaşılmasının tərəfdarıyam. Həmin ərazidən əldə etdiyim şəxsi bilgilərə görə, eyni hərbi hissədə 31 iyul tarixində saat 13:00-da qadağan olunmasına baxmayaraq, şəxsi heyətin gənc əsgərlərdən ibarət bəzilərinin valideynlərlə görüşünə şərait yaradılıb.

Bunu törədən insanların sərt şəkildə cəzalanmasını, lakin bundan əvvəl görüşə şərait yaradan rəhbər vəzifəlilərin də xəbərdar edilməsini uyğun hesab edirəm. Çünki görüş qadağandırsa, bu, hər kəsə aiddir və əmr ləğv olunana qədər qüvvədədir.

Məsələni gözardı edənlər - hərbi hissə rəhbərləri və valideynlər nəzərə almalıdır. Ən yaxşısı odur ki, andiçmə barəsində rəsmi qurumlar elan etdikdə valideynlərə görüş verilib-verilməyəcəyini bir neçə gün əvvəlcədən həmin elanla birlikdə dərc etsinlər. Hamı görüşün mümkün olmadığını əvvəlcədən bilib vəsait və zamanlarını hədər yerə xərcləməsin".

**Yeganə Bayramova**

# Culfada zibil emalı zavodu tikmək daha effektlidir



*Bu zavod müasir üsulda tikilsə Naxçıvan Muxtar Respublikasının özünə xeyir verər*

Naxçıvanda yerli xammala əsaslanan yun tədarükü və iplik istehsalı müəssisəsi yaradılır. Dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində "Yun iplik istehsalı" sahəsinin yaradılması məqsədilə layihənin hazırlanması işləri davam etdirilir.

Həmçinin, gübrələrin baha olması təsərrüfat sahiblərini alternativ üsulları tətbiq etməyə vadar edir. Bu üsullardan biri də kompostlardan istifadə etməkdir. 2021-ci ilin ikinci rübü ərzində dövlət maliyyə dəstəyi hesabına Culfa rayonunda kompost və torf istehsalı sahəsinin yaradılması məqsədilə bir sahibkarlıq subyektinə 30 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlama verib. O, ilk olaraq qeyd edib ki, kompost heyvan və bitki tullantılarından alınan gübrədir. Ekspert diqqətə çatdırıb ki, bu üsuldan istifadə əslində effektivdir:** "Bu gübrə heyvanın təzəyindən, meyvələrin və tərəvəzlərin, yeyinti, ağac tullantılarından, solmuş və qurumuş yarpaqlardan, su bitkilərindən, saralmış və lazım olmayan qəzet kağızlarının xırda kəsilmiş hissələrindən alınır. Bunun effektiv hazırlanması üçün karbon, azot, oksigen, su lazımdır. Əsasən belə gübrələr zibil emalı zavodlarında hazırlanır. Hesab edirəm ki, Culfada zibil emalı zavodu tikmək bundan daha effektivdir. Bu zavod müasir üsulda tikilsə Naxçıvan Muxtar Respublikasının özünə xeyir verər. Dövlət tərəfindən maliyyə vəsaiti buraxılması hesab edirəm ki, əlverişli deyil. Zibil emalı zavodu tikilsə onun effekti bu sahələr üçün əlverişli olacaq. Bundan əlavə, həmin zavodda təkrar emal prosesini İsveç texnologiyası üzrə aparmaq olar. Təsəvvür edin ki, İsveçdə kimin hətta lazımsız uşaq oyuncaqları varsa, onu zavoda gətirib təhvil verir. Zavod isə onu təkrar emal edir və ya yaxşı vəziyyətdədirsə, daha ucuz qiymətə satışa buraxır".

**R.Qarayev əlavə edib ki, zavodun tikilməsində ən çətin məqam onun filtirasiya, yəni havaya buraxılan tüstünün faizinin azalması prosesidir:** "Hesab edirəm ki, qeyd olunan məqamlar nəzərə alınsa Naxçıvan öz gəlirlərini artırmaqla bölgə üçün daha əlverişli vəziyyətə sahib olacaq".

**Aynurə Pənahqızı**

# 200 kişi 10 saat təyyarə gözləyib

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı Heydər Əliyev hava limanında baş verən özbaşnalığı, sərnişinlərə qarşı sayğısızlığı sərt tənqid edib.



S.Rüstəmxanlı feysbuk hesabında bildirib ki, insanlar hava limanında saatlarla gözləyir, onlara gecikən reyslərlə bağlı heç bir dolğun informasiya verilmir: "200 kişi, Azərbaycan vətəndaşı. Bakı Heydər Əliyev hava limanında 10 saata yaxındır oturub Minvoda uçmaq üçün təyyarə gözləyirlər. Bir o qədər insan da o başda Bakıya uçmaq üçün Təyyarə meydanında yatıb qalıb. Bir kəlmə söz deyən, bu yubanmanın, məsuliyyətsizliyin, xalqa sayğısızlığın səbəbini izah edən yoxdur. Belə şərəfsizlik, belə qanunsuzluq olar? Niyə xalqın əsəbləriylə oynayırlar?".



*Nazim Bəydəmirli: "AZAL nə hökuməti, nə dövləti, nə də vətəndaşları sayır"*

**Baş verənlərlə bağlı "Şərq"ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli vurğulayıb ki, millət vəkilinin yazdığı status bir çox məqamlara işıq saçır:** "Sual etmək lazımdır ki, niyə Azərbaycan vətəndaşları öz bölgələrimizdə istirahət etmir? Bunun səbəbi monopoliya, inhisarçılıq, qiymət artımı və xidmətin aşağı olmasıdır. Belə bir ənənə mövcuddur ki, Azərbaycanın orta səviyyəsindən yuxarı yaşayanların böyük əksəriyyəti daha çox Minvod və Şimali Qafqazda olan regionlara istirahətə gedirlər. Ola bilsin ki, oradakı infrastruktur daha çox əlçatandır. Lakin təbiətimiz heç də onlardan geri qalmır. Amma nəticə etibarı ilə ölkəmizdəki yüz minlərlə adam digər ölkələrə istirahətə gedirlərsə, deməli, milyardlarla vəsait ölkədən çıxır. Bunun ölkəyə yönəldilməsi hökumət üçün bir siqnal olmalıdır".

**N.Bəydəmirli söyləyib ki, AZAL nə hökuməti, nə dövləti, nə də vətəndaşları sayır:** "Çünki bu qurum korrupsiya içərisində boğulur. Təsadüfi deyil ki, dövlət başçısı da bu barədə bir neçə dəfə danışıb. Digər şirkətlər monopoliya ucbatından Azərbaycan aeroportuna uçmaqda maraqlı deyillər. Belə şirkətlər ölkəmizdən kənar gəzir. Qiymətlərin baha olması və başqa şirkətlərin ölkəmizə gəlməməyi baxımından vətəndaşların seçim imkanı yoxdur. Ona görə AZAL-dan bilet almağa məcbur olurlar. Hesab edirəm ki, millət vəkili statusunda olan şəxslər bölgələrimizdə istirahət etsələr, vətəndaşlarımızı da buna təşviq edə bilərlər".

**Yeganə Bayramova**



## Rus hərbçisi İrəvanda öldü

"Maşındakı daha dörd nəfər yaralanıb və xəstəxanaya yerləşdirilib"

**Gümrü-İrəvan magistral yolunda baş verən qəza nəticəsində Ermənistandakı Rusiya hərbi bazasının bir hərbçisi ölüb.**

Bu barədə "Şərq" "RİA Novosti"yə istinadən xəbər verir. Məlumatda bildirilir ki, maşındakı daha dörd nəfər yaralanıb və xəstəxanaya yerləşdirilib.

Hərbi hissə komandanlığı hüquq-mühafizə orqanları ilə birlikdə tədqiqata başlayıb. İlkin versiyaya görə, qəzaya səbəb sürücünün idarəetməni itirməsi olub.

**Kənan**

## Tokio Yay Olimpiya Oyunları başa çatdı

ABŞ medal sayına görə birinci oldu



**Tokionun milli stadionunda XXXII Yay Olimpiya Oyunlarının qapanış mərasimi keçirilib. Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir.**

Bildirilir ki, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax bütün idmançıları üç ildən sonra Parisdə təşkil ediləcək olimpiadada gözlədiyini deyib.

Budəfəki yarışlarda ABŞ komandası 39 qızıl, 41 gümüş, 33 bürünc medalla birinci olub.

İkinci, üçüncü yerləri isə müvafiq olaraq Çin və Yaponiya millиləri tutublar.

**Kənan**

## Epidemioloji vəziyyət kəskinləşib

Gürcüstanda açıq havada maska taxmaq yenidən məcburi olacaq



**Sabahdan, avqustun 10-dan etibarən Gürcüstanda 5 nəfərdən çox adamın toplaşacağı açıq havada qoruyucu maskadan taxmaq məcburi olacaq.**

"Report"un yerli bürosu xəbər verir ki, bununla bağlı Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurası qərar qəbul edib.

Qərarın səbəbi ölkədə son zamanlar epidemioloji vəziyyətin kəskinləşməsidir.

*Xatırladaq ki, qonşu ölkədə açıq havada maskadan istifadə tələbi iyunun 22-dən ləğv olunub. Qapalı məkanda fərdi qoruyucu vasitədən istifadə qaydası isə qüvvədədir.*

# Amerika, Avropa əhalini vaksinasiyaya şirnikləndirir

Bir sıra ölkələrdə vaksinin vurulması ilə bağlı kampaniyalar həyata keçirilir. Məsələn, ABŞ-ın Ohaya ştatının federal koronavirus yardım fondları vaksin vurduran 5 amerikalıya 1 milyon dollar pul mükafatı təqdim edib. Belə ki, "koronavirus əleyhinə lotoreya" kampaniyası ilk günündən nəticəsini göstərib. Ştat sakinləri kampaniyaya düşmək üçün xəstəxanalara axışıb.



*Azərbaycandan elə bir addımı düzü gözləmirəm. Gələcəkdə məcburi şəkildə onsuz da vurduracaqlar*

Bundan başqa, Birləşmiş Ştatların Prezidenti Cozef Bayden koronavirusdan vaksin edilən hər amerikalıya 100 ABŞ dolları ödəməyi təklif edib. Bir sıra Avropa ölkələri isə vaksin vurulan şəxslərə 250 avro verəcəyini açıqlayıb. Ancaq Azərbaycanda indiyədək belə kampaniyalara rast gəlinmir. Ölkəmizdə də belə kampaniyalar təşkil edilə bilərmi?

**Mövzu ilə bağlı sosioloq Sahib Altay "Şərq"ə açıqlama verib. O qeyd edib ki, ümumiyyətlə, bütün dünya əhalisinə bu və ya digər şəkildə vaksini vurmaq istəyirlər. Bunun nə dərəcədə effektli olacağı isə sual altındadır:** "Bir məsələni qeyd edim ki, vaksin hazırda sınaq məqsədilə vurulur. Nəticəsinin nə olacağını isə bilmirik. Bir faktı qeyd edim ki, hazırkı vəziyyətdə Avropa əhalisinə bunu məcbur edə bilmir. Niyə edə bilmir? Çünki Avropa insanının hüquq anlayışı ilə Yaxın Şərq insanının hüquq anlayışı eyni deyil. Fərd olaraq və kütlə olaraq da hüquq fenomendir. Bu həm təfəkkürə yansıyıb, həm də həyat tərzinə, praktikaya. Buna görə də burda insanın etiraz haqqı var. Bunu biz hətta pandemiyanın ən sərt vəziyyətində belə gördük ki, Avropanın müəyyən ölkələrində insanlar pandemiyaya qarşı çıxırdılar. Yəni onlar bildirirdilər ki, siz bizim şəxsi həyat azadlığımızı əlimizdən alırsınız. Hökumətlər də, dövlətlər də rəsmi şəkildə bəyanat verirdilər ki, bəs sizin təhlükəsizliyinizə görə edirik. Onlar da buna cavab olaraq bildirirdilər ki, bizim şəxsi həyat azadlığımız var və bu seçim yenə də bizim tərəfimizdən olmalıdır. Düzdür, ortada vətəndaşın təhlükəsizliyi var, ancaq insan haqları da digər tərəfdən var deyə, Avropa bunu məcbur edə bilməyib indiyə kimi.

**Sosioloq qeyd edib ki, vaksinlər hazırda sınaq məqsədilə vurulur və ortada hələ ki, heç bir tibbi nəticəsi yoxdur:** "Avropa bütün əhalisini cəlb etmək məqsədilə iqtisadiyyatda, siyasətdə insan eqosu üzərindən prinsiplər yeridir. İnsan eqosu üzərində hədiyyə, bəxşiş şəklində insanların şirnikləndirib bu kütləvi akta könüllü formada imza atmaq istəyir. Azərbaycana gəlincə, bizdə rəsmi dövlət tərəfindən elan olunur ki, vaksinasiya könüllüdür. Lakin insanın sosial həyatını təşkil edən müstəvilər ki var, bax, o müstəvilərdə fəaliyyəti vaksinsiz qadağan edir. Məsələn, restoranlara toya getmək olmaz. Hətta bir müddətdən sonra vaksinsiz bir çox ictimai-iaşə obyektlərinə, nəqliyyat sektoruna girməyə qadağa qoyulacaq. Yəni bu o deməkdir ki, bizdə vaksin sözdə könüllüdür, ancaq praktikada məcburidir. Sual yarana bilər ki, bəs niyə Azərbaycan Avropa ölkələri kimi insanları şirnikləşdirmədi vaksinə? Pandemiyada gördük ki, Azərbaycan öz vətəndaşına ayda 190 manat pul ödədi. Eyni zamanda, Avropada olan sosial yardımlara baxaq. Bizdən çox fərqlidir. Düzdür, burda iqtisadiyyat faktoru da var. Amma mən Azərbaycandan elə bir addımı düzü gözləmirəm. Gələcəkdə məcburi şəkildə onsuz da vurduracaqlar. Bundan əlavə Azərbaycanda insanlar arasında baş verən proseslərə etiraz mədəniyyəti də formalaşmayıb. Bu da hüquq düşüncəsindən irəli gəlir. Ancaq Avropada etiraz mədəniyyəti formalaşmayıb, bizdə isə əksinə, hər kəs əmrə boyun əyir. Ona görə də inanmıram ki, bizdə də hər hansı şirnikləşdirici proseslər həyata keçirilsin".

**Aynurə Pənahqızı**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 9177-106243/21-15-19 saylı, 01.06.2021-ci il tarixli sifarişi ilə, Bakı şəhəri, Nərimanov rayonu, Əliəşrəf Əlizadə küçəsi, ev 36 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində olan, ümumi sahəsi 631 kv. metr olan qeyri-yaşayış sahəsinə dair 03 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qeyri-yaşayış sahəsi satış qiyməti olan 965.430 (doqquz yüz altmış beş min dörd yüz otuz) manatdan 20% aşağı, yəni 772.344 (yeddi yüz yetmiş iki min üç yüz qırx dörd) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 16 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 38.617 (otuz səkkiz min altı yüz on yeddi) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 9438-233797/2018-15-27 saylı, 06.07.2021-ci il tarixli sifarişi ilə, beton dabanaltı (1000x1000) - 1 ədəd; beton dabanaltı (1000x800) - 1042 ədəd; beton bilərzik (1000x250) - 37 ədəd; veton bilərzik (1000x300) - 90 ədəd; beton bilərzik (1000x400) - 681 ədəd; beton bilərzik (1000x600) - 655; beton bilərzik (1500x400) - 70 ədəd; beton bilərzik (1500x600) - 101 ədəd; beton konus (1000x600) - 787 ədəd; beton konus (1500x600) - 75 ədəd; beton plitə (1,5) - 378 ədəd; beton plitə (2x2) - 81 ədəd; beton plitə (1x1) - 13 ədəd və 29 ədəd beton boruya (800x2000) dair 03 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar satış qiyməti olan ümumilikdə 288.220,5 (iki yüz səksən səkkiz min iki yüz iyirmi manat əlli qəpik) manatdan 20% aşağı, yəni 230.576 (iki yüz otuz min beş yüz yetmiş altı) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 16 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 23.057 (iyirmi üç min əlli yeddi) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Qaradağ rayon İcra Şöbəsinin 08.07.2021-ci il tarixli, 17/65-179781-2/6 saylı sifarişi ilə, "VAZ 2106" minik markalı, 90-GD-183 dövlət qeydiyyat nişanlı, (Sedan, 2003-cü il buraxılışlı, Ban: XTK21060030047561, tünd yaşıl rəngdə) avtomobilə dair 03 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil satış qiyməti olan, 3.600 (üç min altı yüz) manatdan 20% aşağı, yəni 2.880 (iki min səkkiz yüz səksən) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 16 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 288 (iki yüz səksən səkkiz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Qobustan rayon İcra Şöbəsinin 09.07.2021-ci il tarixli (daxil olma 09.07.2021), 20088/2017-35-5-93 saylı sifarişi ilə, 0.0155 ha torpaq sahəsinin üzərində yerləşən, ümumi sahəsi 68.60 kv. metr olan, 2 otaqlı fərdi yaşayış evi və 0.114240 ha kənd təsərrüfatlı təyinatlı torpaq sahəsinə dair 03 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin fərdi yaşayış evi və torpaq sahəsi satış qiyməti olan, (fərdi yaşayış evi) - 18.000 (on səkkiz min) manatdan; (torpaq sahəsi) - 3.084,3 (üç min səksən dörd manat otuz qəpik) manatdan 20% aşağı, yəni (fərdi yaşayış evi) - 14.400 (on dörd min dörd yüz) manata; (torpaq sahəsi) - 2.467 (iki min dörd yüz altmış yeddi) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 16 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (fərdi yaşayış evi) - 720 (yeddi yüz iyirmi) manat; (torpaq sahəsi) - 123 (bir yüz iyirmi üç) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*



# “Apple" həqiqətə doğru addım atdı

## Şirkət sağlamlığa ziyan vuran qurğuların adını sadalayıb

**”Apple” şirkəti istifadəçilərin sağlamlığına ziyan vura biləcək qurğuların siyahısını açıqlayıb.**

”Şərq” xarici mətbuata istinadən xəbər verir ki, şirkət bir sıra ”Apple” qurğularının quraşdırılmış maqnitə malik olduğunu diqqətə çatdırıb. Şirkət bildirib ki, bu komponent quraşdırılmış kardiostimulyator və defibrilyatorların fəaliyyətinə mənfi təsir göstərə bilər. Korporasiya mühəndislərinin sözlərinə görə, əksər məişət elektron qurğuları elektromaqnit sahələrini şüalandıran maqnit və ya komponent və radioqəbuledicilərə malikdir. ”iPhone” smartfonundan başqa quraşdırılmış maqnitlə təchiz edilən qurğular sırasına ”iPad” planşetləri və onların aksesuarları da daxildir. Məsələn, planşetə maqnitlə ”Smart Keyboard Folio” çıxarılabilən klaviatura bərkidilib. ”Apple Watch” saatları da onları enerjidoldurma ilə birləşdirən maqnitə malikdir. Bu, həmçinin ”AirPods” və ”Beats” simsiz qulaqlıqlarına aiddir. Siyahıda, həmçinin ”HomePod” ”ağıllı” kolonkaları və ”Mac” kompüterlərinin bütün versiyaları, eləcə də xarici ”Apple Pro XDR” monitoru yer alıb.

**Aynurə**

# İstifadəçilər "iPhone"un yeni funksiyasından qorxuya düşdülər

"Apple"-in "iPhone" və "iPad"-lərdə qadağan olunmuş fotoların axtarışını nəzərdə tutan yeni texnologiyası məxfilik prinsipinin pozulması kimi qiymətləndirilib. Bu məsələdən narahat olmuş fərdi istifadəçi və qurumların açıq məktubu internet şəbəkəsində yer alıb.



Sputnik Azərbaycan bu barədə RİA Novostiyə istinadla məlumat yayıb.

Məktub müəllifləri belə hesab edirlər ki, bununla ”Apple” özünün uzun illərdir iOS platforması ilə məşhur olan şəxsi məlumatların qorunması sisteminə təhlükə yaradır. Belə ki, ”İCloud və iMessage funksiyalarında göstərilən kriptoqrafik alqoritmlər digər məqsədlər üçün də istifadə edilə bilər. Belə təhlükələrin sırasına məzmun və istifadəçilərin real vaxt rejimindəki məlumatları üzərində nəzarət aləti əldə edilməsi ilə müşayiət olunan dövlət senzurası da aid edilir.

Açıq məktuba imza atmış 5000 şəxs (o cümlədən, hüquq-müdafiə təşkilatları) Amerikanın bu texnologiya nəhəngindən tələb ediblər ki, sistemin inkişaf etdirilməsini dayandırsın.

*Qeyd edək ki, ”Apple”-ın istifadəçi cihazlarında foto-şəkilləri skan etmək texnologiyası barədə məlumat avqustun əvvəllərində yayılıb. Şirkət belə hesab edir ki, bu addım uşaqlar üzərində cinsi zorakılıq hallarının qarşısını almağa imkan verir.*

*Yeni texnologiya ABŞ-da ”iOS” və ”iPadOS”-un böyük payız yenilənməsindən sonra işə düşəcək.*

# Azercell azad olunmuş ərazilərimizdə şəbəkəsini genişləndirir!

*Artıq işğaldan azad olunmuş torpaqlarımızda yüksək keyfiyyətli mobil rabitənin təmin olunması məqsədilə şirkətin 60-dan çox stansiyası fəaliyyət göstərir*

44 günlük Vətən müharibəsində Azərbaycanın böyük qələbəsi nəticəsində doğma torpaqlarımızın azad olunması ölkəmizin həyatında yeni bir mərhələyə təkan verdi. İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması və bərpası istiqamətində dövlət səviyyəli layihələrin təşkil olunması da bundan xəbər verir.

Şanlı ordumuzun, demək olar ki, ardınca bütün cəbhə boyu irəliləyən Azercell komandası Cəbrayıl rayonundan başlayaraq azad edilmiş tarixi torpaqlarımızda, eləcə də qədim Şuşa şəhərində 4G şəbəkəsini işə salmağa müvəffəq olub. Azercell işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini vermək məqsədilə zəruri platforma olacaq mobil telekom infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Belə ki, işğaldan azad olunmuş torpaqlarımızda qurulmuş Azercell şirkətinə məxsus 60-dan artıq radio baza stansiyası 2G/3G/4G standartlarını dəstəkləyir. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər artıq Azercell şəbəkəsi ilə əhatə olunub.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalayıb. Azercell şirkəti öz növbəsində bu istiqamətdə hər cür fəaliyyətə dəstək olmağa hazır olduğunu bildirir.

Azercell-in əsas vəzifəsi və məqsədi işğaldan azad olunmuş ərazilərdə tam gücü ilə yeni nəsil şəbəkənin genişləndirilməsini sürətləndirmək və bu ərazilərə qayıdacaq əhalini mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməkdir.

# “Nar” 50-dən artıq yeni baza stansiyası quraşdırmaqla şəbəkəsini daha da genişləndirib




**Bütün ölkə ərazisində şəbəkəsini genişləndirməklə, əhalini yüksəkkeyfiyyətli və sürətli internetlə təmin etməyi hədəfləyən “Nar” 2021-ci ilin altı ayı ərzində 50-də artıq yeni baza stansiyası quraşdırıb.**

Ölkədə LTE/LTE-A texnologiyalı baza stansiyalarının sayının artması nəticəsində “Nar”ın 4G istifadəçilərinin sayı 28% yüksəlib. Bundan başqa, LTE texnologiyası ilə ötürülən data trafikinin həcmi 23% çoxalıb.

Qeyd edək ki, “Nar” bu il işğaldan azad edilmiş bölgələri də öz şəbəkəsi ilə təmin etməyə başlayıb. Artıq Şuşa şəhəri, Hadrut yolu da daxil olmaqla Xocavənd və Cəbrayıl rayonlarında 2G, 3G və 4G texnologiyalı baza stansiyaları işə salınıb.

*Qeyd edək ki, “Nar” 8780-dən artıq baza stansiyası ilə ölkə əhalisinin 99,9%-ni, ölkə ərazini 90%-ni şəbəkə ilə əhatə edib.*

**Elan**

Bakı şəhəri, E.Əzizov küçəsi, 38/40 ünvanında yerləşən ”NAXIŞ” MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Elçin Mehdiyev əziz dostu Kamrana əmisi Məzahir Məlikov və yaxın qohumu

**İlham Xəlilovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin! Məkanları cənnət olsun! Amin!**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1463

# Ən bahalı kartof qızartması

## Üzərinə qızıl tozu səpilən kartofun bir boşqabı 200 dollara satılır



**Nyu-Yorkdakı bir restoranda dünyanın ən bahalı kartof qızartması Ginnesin Rekordlar Kitabına düşüb.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, üzərinə yeməli qızıl tozu səpilən qızardılmış kartofun bir boşqabı 200 dollara satılır. Böyüklər və uşaqlar tərəfindən sevilən və demək olar ki, həmişə garnitür kimi istifadə edilən kartof əsas yemək olaraq da təqdim edilir. Kartof qızardıqdan sonra truffle tozu və truffle yağı ilə ədviyyatlanır və xidmətə hazır vəziyyətə gətirilir.

**Yeganə**

# Qoltuğun altındakı döş

## Portuqaliyalı həkimlər xəstəyə "Aksesuar döş" diaqnozu qoyublar



**Portuqaliyada həkimlər inanılmaz bir hadisə ilə qarşılaşıblar.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bir müddət əvvəl doğum etmiş 26 yaşlı qadın sağ qoltuğundakı ağrı səbəbindən xəstəxanaya müraciət edib. Müayinə zamanı qadının qoltuğunda dairəvi kütlə aşkarlanıb. Lissabondakı xəstəxanada həkimlər qoltuğun altındakı kütləyə təzyiq edən zaman bölgədə südlü axıntının olduğunu aşkar ediblər. Gənc qadına "Aksesuar döş" diaqnozu qoyulub. Bu nadir hadisə tibb dünyasını sarsıdıb.

**Aynurə**

# Şotlandiyanın 93 adada planı var

## "Əhalisi azalan adada məskunlaşacaq insanlara hökumət 50 min sterlinq verəcək"



**Şotlandiya ölkədə əhalinin azalmasının qarşısını almaq üçüm mühüm plan həyata keçirməyə qərar verib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, planının bir hissəsi olaraq Şotlandiya önümüzdəki 5 il ərzində Hebrid bölgəsindəki adalarda məskunlaşacaq gənc ailələri axtarır. Son 10 ildə köç səbəbindən əhalisi azalan adada məskunlaşacaq insanlara hökumət 50 min sterlinq verəcək. Bu pulla insanların adada ev alacağı və ayrıca iş quracağı bildirilib. Bu qərarla da Şotlandiya 93 adada yaşayan insanların böyük şəhərlərə getməsinin qarşısını almağı planlaşdırır.

**Aynurə**

# "Samsung"un yeni qurğusu...

## Şirkət bilərzik-smartfon icad edib




**"Samsung" şirkəti bilərzik-smartfon yaradıb. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu barədə "91mobiles" nəşri məlumat yayıb.**

Bilərzik "Bluetooth" vasitəsilə qurğu ilə məlumat mübadiləsi edə biləcək. Bu yeni qurğu quruluşuna görə "S-Pen" rəqəmli qələmini xatırladır. O, smartfon akkumulyatorundan enerji toplamaq imkanına malikdir.

**Aynurə**




# İnanılmaz...

## Belə dəlilik olmaz!






**ABŞ-da peyvəndə qarşı çıxan bir qadının supermarketə daxil olaraq nümayişkaranə bir şəkildə bir çox əşyanı diliylə yalaması və bütün bu mənzərəni videoya çəkərək sosial şəbəkədə paylaşması şok effekti yaradıb.**

Jodie Meschuk adlı qadının Kolorado ştatında yaşadığı ehtimal edilir. Qadın hədsiz təhlükə daşıyan bu hərəkətini belə "əsaslandırıb" ki, viruslar təhlükəsizdir, peyvəndə də ehtiyac yoxdur. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, qadının paylaşdığı video baxılma rekordu qırıb. Eyni zamanda böyük təpkilər yaradıb. Qadın özünü "peyvənd əleyhdarı" kimi təqdim edir, "Covid-19"-un önəmli bir xəstəlik olmadığını "isbat etmək" üçün supermarketdə qarşısına çıxan istənilən əşyanı diliylə yalaya biləcəyini və bundan çəkinməyiyini elan edir. İnstaqram vasitəsilə təqibçilərini "maariflәndirdiyini" də iddia edir. Videosuna "mikroblar immunsistemi gücləndirir. Mikroblara məruz qalmaq asma və allergiyaya qarşı müdafiə yaradır. Mikroblar, həzm prosesinə də yardımçı olur" mesajlarını əlavə edən qadın, təqibçilərinə "sərbəst" olmalarını da tövsiyə edib. Videonun harda çəkildiyi bəlli deyil, amma maraqlı budur ki, qısa müddət sonra video şəxsi hesabdan silinib və instaqramdan yığışdırılıb. Qadının instaqramda 17 min izləyicisinin olduğu bildirilir. Həmçinin "Autuzm Reimagined" kitabının müəllifidir.

**Turan**

# Sel Vanın bir çox bölgələrində dağıntı yaratdı

## Mövlut İşləgözü qohumu traktorla xilas edib



**Vanın Başkalə ilçəsinə aid Yanal məhəlləsində yaşanan sel fəlakəti zamanı suların ortasında mini-bus içində əlacsız qalmış Mövlut İşləgöz yaxın qohumu Mehmet Dönər tərəfindən xilas edilib.**

Mehmet Dönər özünə məxsus traktorla mini-busu suların içindən çəkib çıxararaq, qohumunu xilas edib. "Şərq" "Milliyet.com"a iatinadən xəbər verir ki, hadisə bu günlərdə Türkiyənin, sel sularına təslim olmuş Van bölgəsində yaşanıb. Leysan yağışları nəticəsində Vanın bir çox bölgələri, o cümlədən Başkalə və ətraf ərazilərdə dağıntılara səbəb olub. Esenyamacda 10-a yaxın ev sel sularının altında qalıb. Yanal məhəlləsində yaşayan Mövlut İşləgöz sel gəldiyini görüb ailəsinə yardıma tələsib. Lakin sel sularının ortasında qalıb. Mini-busu hərəkət etdirə bilməyib. Ətrafdakılar qohumu Mehmet Dönərə xəbər verib. Mehmet Dönər traktorla qohumunun köməyinə çatıb. Uzaqdan qalın trosla mini-busu traktora qoşaraq dartıb sudan çıxara bilib. Bu anları da telefonun kamerasına çəkib, sonra da paylaşıb. Mövlut İşləgöz ona kömək edən hər kəsə təşəkkürünü bildirib. Doğu Sənaye və İş Dünyası Federasiyası başqanı Müslüm Erbay yerli mediaya açıqlamasında bildirib ki, sel zamanı zərər görmüş evlərə yardım ediləcək. Həmçinin məhəlləli Mövlut İşləgözün zərər görmüş mini-busuna dəymiş ziyanın ödənəcəyini, onu traktoruyla xilas edən Mehmet Dönərin sel zamanı tələf olmuş inəyinə görə də zərərin qarşılanacağını söyləyib.

**Məlahət**

# İndi də qardaşı danışdı

## Meqanın ailəsi ilə yaşadığı problemlər bitmir



**Aktrisa Meqan Marklın ailəsi ilə olan problemləri bitmək bilmir.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, Meqanın qardaşı Markl Tomas onunla bağlı həqiqətləri qatıldığı realitişouda açıqlayıb. "Mən Meqanın böyük qardaşıyam. Şahzadə Harriyə düşünürəm ki, o sizin həyatınızı məhv edəcək demişəm. O çox səthi insandır".

*Qeyd edək ki, Meqan ailəsi ilə problemlər yaşayır. Atası Tomas Markl bu yaxınlarda onu və həyat yoldaşını məhkəmyə verməklə hədələyib. Onun sözlərinə görə, cütlük balaca qızlarını ona göstərmir.*